# “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”

**Azərbaycan Respublikası Qanununun**
**20-ci maddəsinə əsasən**
**Azərbaycan Respublikası**
**Ailə, Qadın və Uşaq Problemləri**
**üzrə Dövlət Komitəsinin**

**2020-ci il üzrə**

# M Ə L U M A T I



Bakı – 2021

# MÜNDƏRİCAT

GİRİŞ . . . . . . . . . . 4

1. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri (Maddə 5) . . . . . . . . . . 5

1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi . . . . . . . . . . 5
1.2. Gender bərabərliyi mədəniyyətinin təbliği . . . . . . . . . . 10

2. Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələri (Maddə 2.0.4, 3, 4, 6) . . . . . . . . . . 13

2.1. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması 13
2.3. Dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi . . . . . . . . . . 23

3. Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi (Maddə 7-16) . . . . . . . . . . 29

3.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmini . . . . . . 29
3.2. Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi . 37
3.3. Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təmin edilməsi . . . . . . . . . . 45

4. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlər . . . . . . . . . . 48

# İxtisarlar

| | |
|---|---|
| AR | – Azərbaycan Respublikası |
| AQUPDK | – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| UADM | – Uşaq və Ailələrə Dəstək Mərkəzi |
| KOBİA | – Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| YAP | – Yeni Azərbaycan Partiyası |
| İKT | – İnformasiya və Komunikasiya Texnologiyaları |
| EKTİS | – Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi |
| AHİK | – Azərbaycan Həmkarlar ittifaqları Konfederasiyası |
| HİRK | – Həmkarlar İttifaqı Respublika Komitəsi |
| CEDAW | – Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyası |
| AFAQ | – Aqrar Fəaliyyətli Azərbaycan Qadınları |
| GIZ | – Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti |
| BMT | – Birləşmiş Millətlər Təşkilatı |
| FAO | – Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| BƏT | – Beynəlxalq Əmək Təşkilatı |
| DİM | – Dayanıqlı İnkişaf Məqsədləri |
| AQSİA | – Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası |

# Giriş

2020-ci ildə də Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən tanınan və müdafiə olunan mühüm prinsip və standartlardan biri kimi gender bərabərliyinin təmin edilməsinə yönəlik zəruri alət və mexanizmlərin inkişafı istiqamətində səylərini davam etdirmişdir.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu"nun 20-ci maddəsinə uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2020-ci il üzrə məlumatında ötən il respublikamızda bu sahədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətləri, o cümlədən dövlətin vəzifələri, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi ilə bağlı görülmüş işlər və əvvəlki illərlə müqayisədə irəliləyişlərin dinamikası əksini tapmışdır.

Məlumatın informasiya bazasını Dövlət Komitəsinə aid olan və müvafiq dövlət orqanlarından (qurumlarından) toplanılan və ümumiləşdirilən materiallar təşkil etmişdir.

Dövlət Komitəsi və aidiyyəti dövlət orqanları (qurumları) bu sahədəki fəaliyyətlərini qarşılıqlı əməkdaşlıq əsasında həyata keçirmiş, qüvvədə olan hüquqi-normativ aktlar, Fəaliyyət Planları və əsasnamələrində nəzərdə tutulan istiqamətlər üzrə öhdəliklərini səlahiyyətləri və mövcud imkanları çərçivəsində qurmuş, vətəndaş cəmiyyəti və media orqanları ilə sıx əlaqədə çalışmış, mövcud problemlərin aradan qaldırılması üçün birgə səy göstərmişlər.

Həmçinin BMT-nin CEDAW Komitəsinin rəy və tövsiyələri, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə və digər mötəbər beynəlxalq təşkilatların çağırışları da nəzərə alnmışdır.

**Məlumat "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanun"un müvafiq maddələrindən irəli gələn dörd istiqamət üzrə tərtib edilmişdir.**

- "Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri (Maddə 5)" bölməsinə gender bərabərliyinin təmin edilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi, təsdiq edilmiş yeni hüquqi sənədlər, institusional mexanizmlərin inkişafına dəstək və gender mədəniyyətinin təbliği istiqamətində görülən işlərə dair məlumatların icmalı daxil edilmişdir.

- "Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələri (Maddə 2.0.4, 3, 4, 6)" bölməsində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması (xüsusilə də gender əsaslı məişət zorakılığının, qız uşaqlarının erkən yaşda evliliyinin aradan qaldırılması, selektiv abortların qarşısının alınması), dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində bir cinsin nümayəndəsinin üstünlüyünə yol verilməməsi istiqamətində həyata keçirilən tədbirlər öz əksini tapmışdır.

- "Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi (7-16)" bölməsi əmək hüquqlarının həyata keçirilməsi, xüsusilə də qadınlar və kişilər üçün qeyri-ənənəvi peşə sahələrində gender fərqlərinin aradan qaldırılması, məşğulluğun dəstəklənməsi, habelə təhsilin ayrı-ayrı pillələrində təhsil hüquqlarının həyata keçirilməsində yaradılmış bərabər imkanlara və siyasi partiyaların, ictimai birliklərin və həmkarlar təşkilatlarının fəaliyyətində gender bərabərliyinin təmin edilməsinə dair məlumatları əhatə edir.

- Yekun olaraq Məlumatın "Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlər" bölməsində bu sahədə mövcud boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə həyata keçirilməsi zəruri olan tədbirlər qeyd edilmişdir.

# 1. Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri (Maddə 5)

## 1.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi

Azərbaycan Respublikasında insan hüquqlarının tərkib hissəsi olan gender bərabərliyinin, eləcə də qadın və uşaq hüquqlarının təmin olunmasının fundamental hüquqi əsasları yaradılmışdır. Bu istiqamətdə atılan addımlar sırasında «Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» və «Uşaq hüquqları haqqında» BMT konvensiyalarının ratifikasiyası, normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə zəruri qanunvericilik aktlarının, o cümlədən «Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında « və «Məişət zorakılığının qarşısının alınması haqqında»qanunların qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda qadın və uşaq hüquqları sahəsində dövlət siyasətinin formalaşması və zəruri institusional islahatların həyata keçirilməsi də xüsusi qeyd edilməlidir.

**2020-ci ildə də ölkədə gender bərabərliyinin təmin olunması sahəsində mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi, qanunvericiliyin Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq konvensiyalarda təsbit olunmuş prinsip və standartlara uyğunlaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilmiş və aşağıdakı mühüm qanunvericilik aktları qəbul edilmişdir:**

- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 24 fevral tarixli, 71s nömrəli Sərəncamı ilə "Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər Planı çərçivəsində doğulan uşaqların cins nisbəti üzrə etibarlı və əlçatan məlumatların və göstəricilərin əldə edilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, gender ayrı-seçkiliyini və bərabərsizliyini aradan qaldırmaq məqsədilə qızlara və qadınlara dəstək tədbirlərinin genişləndirilməsi, gender stereotiplərinin aradan qaldırılması istiqamətində təbliğatın və maarifləndirmə tədbirlərinin, həmçinin qurumlararası əlaqələrin və əməkdaşlığın gücləndirilməsi üzrə müvafiq tədbirlər nəzərdə tutulmuş və hazırda həyata keçirilməkdədir.

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 aprel 2019-cu il tarixli, 291s nömrəli Sərəncamının 2-ci hissəsinin icrasının təmin edilməsi məqsədilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihəsi hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli, 213 saylı Qərarı ilə təsdiq edilmişdir.

- "Azərbaycan 2020:Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının 7.4-cü bəndinə əsasən, Komitə tərəfindən "Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2 iyul 2020-ci il tarixli, 2073 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Strategiyanın məqsədi ölkədə uşaq müdafiəsi sisteminin Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə və BMT-nin "Uşaq hüquqları haqqında Konvensiyası"nın prinsiplərinə tam uyğunlaşdırılmasından, Azərbaycan Respublikasının ərazisində bütün uşaqlar üçün bərabər imkanların yaradılmasından, onların ən ümdə maraqlarının qorunmasından, dövlət qayğısına

ehtiyacı olan uşaqların hüquqlarının daha səmərəli müdafiəsindən, onlar üçün müasir standartlara malik sosial dəstək xidmətlərinin təmin edilməsindən ibarətdir.

- Komitə tərəfindən Strategiyanın icrası məqsədi ilə hazırlanmış “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı” Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli, 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

- “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli, 2307 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Milli Fəaliyyət Planında əsas məqsəd ölkədə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ailələrin möhkəmləndirilməsi naminə onların vaxtında və hərtərəfli yardımla təmin edilməsi, məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılmasıdır. Bu məqsədlə Fəaliyyət Planında məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi bazanın beynəlxalq təcrübəyə uyğunlaşdırılması, məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində məlumatlandırma və maarifləndirmə tədbirlərinin təşviqi, məişət zorakılığından zərər çəkmiş şəxslərin aşkarlanması və erkən identifikasiyası, məişət zorakılığından zərər çəkmiş şəxslərin müasir standartlara uyğun yardım xidmətləri ilə təmin olunması, məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması istiqamətində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

- Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək məqsədi ilə Komitənin və BMT-nin Əhali Fondunun birgə əməkdaşlığı ilə məişət zorakılığı ilə bağlı müraciətlərin qəbul edilməsi məqsədilə **860 nömrəli telefon xətti** yaradılmış və 2020-ci il dekabrın 1-dən etibarən fəaliyyət göstərməkdədir.

- 2020-ci ildə sosial sifarişlər çərçivəsində məişət zorakılığının qarşısının alınması istiqamətində Bakı şəhərinin bir rayonunda, Respublikanın 2 regionunda “Məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzi” və Sumqayıt şəhərində “Məişət zorakılığından əziyyət çəkmiş uşaqlara yardım mərkəzi” yaradılmışdır

***Qeyd olunan qanunvericilik aktlarının qəbulu ilə yanaşı, aşağıdakı bir sıra mühüm sənədlərin layihələri hazırlanmış və müvafiq qurumlara təqdim olunmuşdur:***

- Birləşmiş Millətlər Təşkilatının “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya”sı (CEDAW), Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, Dayanıqlı İnkişaf Məqsədləri və digər beynəlxalq sənədlərə uyğun olaraq “Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planı”nın layihəsi hazırlanmışdır.
- BMT TŞ-nın “Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair Milli Fəaliyyət Planı”nın layihəsi hazırlanmışdır.

- “Azərbaycan Respublikasında qadın məşğulluğunun təminatı ilə bağlı Milli Fəaliyyət Planı”nın layihəsi hazırlanmışdır.

**Digər qurumlar tərəfindən hazırlanmış layihələr və təkliflər**

- 2019-cu il üzrə hazırlanan Məlumatda əks olunan tövsiyəyə uyğun olaraq, gender bərabərliyinin təmin edilməsi məqsədilə atalar üçün müəyyənləşdirilmiş 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla verilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsində Əmək Məcəlləsinin 125-ci maddəsinə yeni 4-cü hissə əlavə edilməsi nəzərdə tutulur. Burada müəyyən edilir ki, "Uşağının anadan olmasına görə kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuş gününə təsadüf edən ərəfədə 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilir". Hazırda layihə Ədliyyə və İqtisadiyyat Nazirliklərində razılaşdırılma mərhələsindədir.

- "Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər - ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyasına qoşulmaq barəsində" 2010-cu il 11 may tarixli, 1003-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə əlaqədar Əmək Məcəlləsinə ailə vəzifələri olan işçi anlayışının daxil edilməsinə dair layihə (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən) hazırlanmışdır. Hal-hazırda layihə razılaşdırma mərhələsindədir.

- Dünya Bankının xətti ilə 2020-ci ildə "Azərbaycanda qadınların məşğulluğu üçün hüquqi maneələrin aradan qaldırılması" adlı texniki dəstək layihəsi həyata keçirilmişdir. Texniki dəstək çərçivəsində ölkəmizdə qadınların məşğulluq imkanlarının genişləndirilməsi, gender bərabərliyinin və qadınların daha yüksək əmək haqqı ödənilən sahələrdə çalışmasının təmin edilməsi nəzərdə tutulur. Eyni zamanda beynəlxalq əmək normalarına uyğun olaraq, qadınların hüquqlarının müdafiəsi məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində, eləcə də Nazirlər Kabinetinin Məcəllədən irəli gələn müvafiq qərarında qadınların əməyi qadağan olunan 700-ə yaxın peşə (vəzifə) və iş yerini müəyyənləşdirən Siyahının ləğv edilməsi və əvəzində hamilə və bir yaşınadək uşağı olan qadınların əməyi qadağan olunan iş yerlərinin və zərərli maddə və amillərin Siyahılarının təsdiq edilməsi nəzərdə tutulur.

- Eləcə də, BƏT-in ekspertləri tərəfindən dolayı ayrı-seçkilik hesab edilən ölkə üzrə qadınlarla kişilərin orta aylıq əmək haqqı səviyyələri arasındakı kəskin fərqliliyin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində və bu Məcəllədən irəli gələn normativ hüquqi aktlarda müvafiq dəyişikliklər edilməsi nəzərdə tutulur.

**<u>İnstitusional mexanizmlər</u>**

***Azərbaycanda dövlət gender siyasətini təmin etmək üçün formalaşdırılmış institusional mexanizmlərin gücləndirilməsi istiqamətində 2020-ci ildə aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir:***

## Uşaq və Ailələrə Dəstək Mərkəzləri

*Uşaq və Ailələrə Dəstək Mərkəzləri (UADM) icma əsaslı fəaliyyətləri həyata keçirməklə, risk qrupuna daxil olan ailələri aşkarlamış, onların ilkin psixososial qiymətləndirilməsini apararaq, problemlərinin həlli istiqamətində onları ehtiyaclara uyğun xidmətlərə cəlb etmişlər.*

*Həm Koronavirusla mübarizə, həm də 44 günlük Müharibə zamanı UADM-lərin potensial imkanlarından daha çox ailələr bəhrələnmişlər. Belə ki, ailələrin bütün üzvlərinə fərdi yanaşma*




*prinsipi ilə göstərilən qayğı və dəstək UADM-lərin geniş imkanlara malik olduğunu bir daha göstərmişdir.*

- 2020-ci ildə mərkəzlər tərəfindən müxtəlif mövzularda həm onlayn həm də əyani formada keçirilən maarifləndirmə kampaniyalarından ümumilikdə 5702 nəfər bəhrələnmişdir.

- COVİD-19 pandemiyası ilə mübarizə məqsədilə tətbiq olunan xüsusi karantin rejimi müddətində ailələrdə psixoloji vəziyyətin yaxşılaşdırılması, valideyn-uşaq münasibətlərinin tənzimlənməsi məqsədilə onlayn və əyani formada keçirilən təlim, məşğələ və psixo-sosial qiymətləndirmələrdən 3254 nəfər bəhrələnmişdir.

- Xüsusi karantin rejimi dövründə UADM-lərin sosial işçiləri və könüllüləri tərəfindən ailə vəziyyəti qiymətləndirilmiş 2846 ailəyə ehtiyaclarına uyğun (ərzaq yardımı, dərman vasitələri, geyim, tibbi maska və dezinfeksiyaedici və gigiyenik vasitələr) dəstək göstərilmişdir. Bu yardımların verilməsinə Komitənin "Ailədən Ailəyə" aksiyasına qoşulan 146 ailə də qoşulmuşdur.

- Mərkəzlərin işçi heyətinin bacarıqlarının artırılması məqsədilə müxtəlif mövzularda keçirilən təlimlərdə 60 əməkdaş və 55 könüllü iştirak etmişdir.

***UADM-lərin 44 günlük müharibə və post müharibə dövründə həyata keçirdiyi tədbirlər***

- 44 günlük Vətən Müharibəsi dönəmində məktəb və kolleclərdə, sanatoriyalarda müvəqqəti olaraq yerləşdirilən ailələrlə müxtəlif mövzularda maarifləndirmə tədbirləri, sığınacaq şəraitində 450 uşaq üçün inkişafetdirici məşğələlər keçirilmiş və ailələrə psixoloji dəstək göstərilmişdir.

- Vətən Müharibəsi dövründə UADM-lər tərəfindən şəhid ailələri və yaralı əsgərlər ziyarət edilmiş onlara psixoloji dəstək göstərilmiş, sosial problemlərinin həlli ilə bağlı müvafiq köməkliklər edilmişdir.

- Ümumilikdə 2020-ci il ərzində UADM-lərin fəaliyyətindən 25023 nəfər (9876 ailə) bəhrələnmişdir.

- Komitə tərəfindən 31 dekabr Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və yeni il ərəfəsində 11 rayonda 450-yə yaxın şəhid və müharibədən zərər çəkmiş ailələrə və uşaqlara yardımlar göstərilmişdir.

- Komitə "Fövqəladə hallarda uşaq müdafiəsi" layihəsi çərçivəsində müharibədən zərər çəkən uşaqlarla psixo-sosial dəstək işinin aparılması məqsədilə Goranboy və Ağdam rayonlarında 600-dən çox ailəyə və 1400 uşağa psixo-sosial yardım göstərmişdir.

## Gender məsələləri üzrə məsul şəxslər

*Dövlət orqanları (qurumları) və digər təşkilatların öz fəaliyyətlərinə gender amilinin daxil edilməsi, gender siyasətinin həyata keçirilməsi məqsədilə təyin edilmiş gender məsələləri üzrə məsul şəxslərinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə tədbirlər davam etdirilmişdir.*

- Komitə və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə gender məsələləri üzrə məsul şəxslər üçün 2 günlük təlim kursu keçirilmişdir. Təlimlər gender bərabərliyinin təmin edilməsi, qadın hüquqlarının müdafiəsi, liderlik, gender auditi, mövcud gender siyasəti və bu istiqamətdə milli qanunvericilik və beynəlxalq təşkilatlarla əməkdaşlıq, cinsi ayrı-seçkiliklə mübarizə üsulları və digər müvafiq mövzuları əhatə etmişdir. Təlimlərdə 45-ə yaxın qurumun gender və kadr məsələləri üzrə məsul şəxsləri iştirak etmişdir.

- Komitə və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə Respublikanın 67 rayon və şəhərinin gender məsələləri üzrə məsul şəxsləri-icra hakimiyyəti başçılarının ictimai-siyasi və humanitar məsələlər üzrə müavinləri, icra hakimiyyətlərinin şöbə müdirləri və digər əməkdaşları, ərazi icra nümayəndələrinin iştirakı ilə “Gender əlaqələndiriciləri üçün gender məsələlərinin təhlili” adlı onlayn təlimlər keçirilmişdir. Təlimlərdə “Bələdiyyələrdə Gender Bərabərliyi siyasətini həyata keçirmək üçün Praktiki Tövsiyələr” kitabı iştirakçılara təqdim olunmuş, son dövrün aktual problemləri olan gender əsaslı zorakılıq halları nəticəsində təhsildən yayınma, erkən evlilik, insan alveri və əmək bazarında yaranan problemlərin qarşısının alınmasında yerli özünüidarəetmə orqanlarının əhəmiyyətli rolundan bəhs edilmişdir.

- Komitə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə “Cənubi Qafqazda Yerli İnkişaf üçün Yaxşı İdarəetmə Proqramı” çərçivəsində layihə həyata keçirmişdir. Layihə çərçivəsində “Yerli özünüidarəetmədə gender bərabərliyi siyasəti” mövzusunda videokonfrans, “Gender Əlaqələndiriciləri üçün gender məsələlərinin təhlili” və “Gender və erkən nikahlar” adlı onlayn təlimlər keçirilmişdir.

## Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları

*“Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları” 2020-ci il ildə də öz fəaliyyət istiqamətlərinə uyğun iş planları üzrə yerlərdə preventiv işlər aparmış, məişət zorakılığı, eyni zamanda uşaqlara qarşı zorakılığın fəsadlarının aradan qaldırılmasına yönəlmiş tədbirlər həyata keçirmişlər.*

*Həmçinin Komitə tərəfindən onların bilik və bacarıqlarının artırılması istiqamətində mütəmadi olaraq görüş və məsləhətləşmələr keçirilmişdir. Eyni zamanda rayon icra hakimiyyətlərinə daxil olan məişət zorakılığı hallarının araşdırılması, lazımi hüquqi və preventiv tədbirlərin aparılması sahəsində monitorinq qruplarının rəhbərləri və məsul əməkdaşlarına təlimatlar verilmişdir.*

- “Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq” qruplarının işinin təkmilləşdirilməsi, fəaliyyətinin səmərəli təşkili, həmçinin potensialının artırılması istiqamətində 2020-ci ilin sentyabr ayından başlayan “Məişət zorakılığı qurbanlarının təhlükəsizliyini təmin etmək və onları dəstəkləmək üçün dövlət qurumları və yerli səviyyəli istiqamətləndirmə mexanizmlərinin potensialının artırılması” üzrə Tvinninq layihəsi çərçivəsində ilkin görüşlər keçirilmişdir. 2021-ci il ərzində qeyd olunan istiqamətlərdə təlim və tədbirlərin keçirilməsi planlaşdırılmışdır.

## Qadın Resurs Mərkəzləri

*Müxtəlif layihələr çərçivəsində beynəlxalq təşkilatların dəstəyi ilə Komitə tərəfindən 10 rayonda (Sabirabad, Biləsuvar, Neftçala, Masallı, Salyan, Qusar, Zaqatala, Xaçmaz, Göyçay və Bakı şəhərinin Xəzər rayonu) yaradılmış Qadın Resurs Mərkəzləri kənd və qəsəbələrdə yaşayan qadınların iqtisadi və sosial həyatda fəal iştirakına, işgüzar və sosial imkanlarının artırılmasına, həmçinin iqtisadi cəhətdən aktiv, o cümlədən sahibkar qadınlar arasında şəbəkənin yaradılmasına dəstək göstərmək sahəsində fəaliyyətini genişləndirmişdir.*

- Dövlət Komitəsi 2011-ci ildən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə Azərbaycanda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” adlı texniki yardım layihəsi çərçivəsində aparılan işləri davam etdirmişdir. 2011-2020-ci illər ərzində yaradılaraq, layihə müddəti bitdikdən sonra Dövlət Komitəsinin dəstəyi ilə qeyri-hökumət təşkilatı kimi qeydə alınan Qadın Resurs Mərkəzlərinin sayı 9-a çatmışdır. Hesabat ilində Bakı şəhəri Xəzər rayon QRM və Qusar rayon QRM qeyri-hökumət təşkilatı kimi dövlət qeydiyyatına alınmışdır. Hazırda ümumilikdə 9 QRM-nin 2799 nəfər üzvü vardır.

- Komitə həmçinin Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə “Göyçay rayonunda qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsinə dair layihə həyata keçirilməkdədir. Layihə çərçivəsində Göyçay Rayonunda da Qadın Resurs Mərkəzi yaradılmış və fəaliyyətə başlamışdır.

- Qadın Resurs Mərkəzləri tərəfindən COVİD-19 pandemiyası dövründə 880 ailəyə psixoloji və 440 ailəyə ehtiyaclarına uyğun (ərzaq, dərman, geyim, dezinfeksiyaedici vasitələr) ərzaq yardımı göstərilmişdir.

## Bələdiyyələrdə Gender Komissiyaları

*Komitə 2020-ci ildə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə Respublikanın 15 rayon və şəhərində (Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Ağcabədi, Ağdaş, Bərdə, Tərtər, Bakı şəhərinin Xətai, Nəsimi, Səbail, Yasamal, Binəqədi, Qaradağ, Sabunçu rayonlarında) bələdiyyələrdə Gender Komissiyalarının yaradılmasına texniki yardım göstərmişdir. Gender Komissiyalarının yaradılmasında məqsəd bələdiyyələrdə gender problemlərinə həssaslığın artırılması və Komitə ilə əlaqələndirilmiş işin aparılmasıdır.*



## 1.2. Gender bərabərliyi mədəniyyətinin təbliği

***"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 5.0.4-cü maddəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq gender bərabərliyi mədəniyyətinin təbliği göstərilir.***

*Gender mədəniyyətinin təbliği, dövlət ailə siyasətinin həyata keçirilməsi istiqamətində "ailə institutunun inkişafı", "milli-mənəvi dəyərlərin qorunması və gənc nəsilə aşılanması", "gender bərabərliyi", "qadınlara qarşı zorakılıq", "gender stereotipləri", "reproduktiv sağlamlıq və sağlam həyat tərzinin təbliği" və digər mövzularda tədbirlər həyata keçirilmişdir:*

- Gənclər arasında milli-mənəvi dəyərlərin və gender mədəniyyətinin təbliği, onların ailə qurmağa hazırlıq səviyyəsinin artırılması və onlarda ailə məsuliyyətinin formalaşdırılması, eləcə də nümunəvi ailə modellərinin tanıdılması məqsədilə "Ailələrimizi tanıyaq" layihəsi davam etdirilmişdir.

- Əhalinin maarifləndirilməsi məqsədilə Komitə tərəfindən "Erkən Nikah", "Gender bərabərliyi", "Ailədə gender bərabərliyi" və "Reproduktiv sağlamlıq" mövzularında bukletlər hazırlanmış, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə çap edilmiş və əhaliyə paylanılmışdır.

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) birgə təşkilatçılığı ilə "Göyçay rayonunda qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsi və Qadın Resurs Mərkəzinin yaradılması" layihəsi çərçivəsində "Gender bərabərliyi və insan hüquqları" mövzusunda təlimlər keçirilmişdir. Təlimlərdə 30 nəfər qadın iştirak etmişdir.

- Karantin və sosial izolyasiya müddətində ailənin psixoloji iqliminə, yeniyetmə və gənclərin ailədə şəxsiyyət kimi formalaşmasına təsir edən amillərin müzakirəsi və ailələrdə gender bərabərliyinin qorunmasına, yaranan psixoloji problemlərin həllinə köməklik göstərilməsi məqsədi ilə Komitə tərəfindən psixoloqların iştirakı ilə valideynlər üçün "Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları" mövzusunda onlayn görüş keçirilmişdir. Onlayn görüşdən ümumilikdə 2600 nəfər insan faydalanmışdır.

- Təhsil Nazirliyinin dəstəyi ilə "Ailə dəyərlərinin təbliği" adlı tədbirlər keçirilmişdir. Tədbirlərdən 9 dövlət ali və orta təhsil müəssisələrinin 500 nəfər tələbə, valideyn və müəllim kollektivi yararlanmışdır.

- Regionlarda Gənclər evləri tərəfindən "Müasir dövrdə ailə dəyərləri", "Gələcək ailə müasir gənclərin gözündə", "Gender və reproduktiv sağlamlıq. Erkən nikahlar", "Dayanıqlı İnkişaf Məqsədlərində gender bərabərliyi məsələsi", "Erkən nikah və ailədə qız uşaqlarının dəyərinin artırılması", "Erkən nikah və gender bərabərliyi", "Qadın və qızların cəmiyyətdə rolunun artırılması", "Qadın və qızlara qarşı zorakılıqla mübarizə", "Qadınlara qarşı stereotiplər", "Yarımçıq təhsil, erkən nikah və kəbin" mövzularında təlimlər keçirilmişdir. Ümumilikdə 550 nəfər təlimlərdə iştirak etmişdir.



- Daxili işlər orqanları tərəfindən insan alverinin, məişət zorakılığının, erkən nikahların qarşısının alınması, uşaq hüquqlarının profilaktikası, hüquqpozmaların və digər zərərli vərdişlərin qarşısının alınması, hüquqi maarifləndirmə, sağlam həyat tərzinin təbliği mövzularında orta-ixtisas və ali təhsil müəssisələrində 350-dən artıq görüş, yığıncaq və konfrans təşkil edilmişdir.

***2020-ci ildə də gender amilinin həyata keçirilən bütün siyasət və tədbirlərə daxil edilməsi işi davam etdirilmişdir.***

- FAO və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə həyata keçirdiyi 2-ci "Hazırlıq" Readiness layihəsi çərçivəsində hazırlanmış "Kənd təsərrüfatı və Torpaqdan İstifadə, Torpaqdan İstifadənin dəyişdirilməsi və Meşəçilik sektorlarında Azərbaycanda Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrin icrası üzrə mövcud səylərə dair təhlil" hesabatında kənd təsərrüfatı sektoru ilə bağlı mövcud qanunvericilik və strateji sənədlərdə, adaptasiya siyasət və strategiyalarında gender məsələləri ilə bağlı tövsiyələr öz əksini tapmışdır.

İqlim dəyişmələri ilə bağlı milli səviyyədə siyasət və proqramların gender prespektivlərini ehtiva etməsi üçün bir sıra sektoral və ümumi təhlillər həyata keçirilmiş, müvafiq tövsiyə xarakterli sənədlər işlənib hazırlanmışdır.

- "Ölkə Proqramı" hesabatının "İqlim dəyişmələri və gender" bölməsində qadın və uşaqların iqlim dəyişikliyinə uyğunlaşma və fəlakət riskinin azaldılması barədə qərar qəbul etmə proseslərində iştirakı və iqlim dəyişikliyi mövzularında məlumatlılığının artırılması üzrə tövsiyələr öz əksini tapmışıdır. Proqram BMT-nin İnkişaf Proqramı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə həyata keçirdiyi "Yaşıl İqlim Fondu ilə əməkdaşlığa "Hazırlıq" Readiness layihəsi (1-ci)" çərçivəsində hazırlanmışdır.

- "İqlim Dəyişmələri üzrə 4-cü Milli Məlumatın hazırlanması" layihəsi çərçivəsində Təhsil Nazirliyinin Respublika Uşaq Gənclər İnkişaf Mərkəzi ilə birlikdə mütəmadi olaraq keçirilən vebinarlarda iqlim dəyişmələrinin belə dəyişmələrə daha həssas olan qadın və uşaqlara təsirlərinin fəsadları, həmçinin istilik effekti yaradan qazların konsentrasiyasının məişətdə azaldılmasında qadınların rolu müzakirə olunmaqdadır.



# 2. Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələri (Maddə 2.0.4, 3, 4 və 6)

## 2.1. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması

Qanunun 6-cı maddəsinə əsasən dövlət cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üçün tədbirlər görür.

Qanunda (2.0.4-cü maddə) cinsi mənsubiyyətə görə ayrı-seçkilik–seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük kimi müəyyən edilmişdir.

Qanunun 3-cü maddəsində ayrı-seçkilik hesab olunmayan hallar göstərilmişdir. Lakin, bir sıra qanunlarda artıq cinslər arasında müəyyən məsələlərlə bağlı fərqlərin aradan qaldırılması ilə bağlı dəyişikliklər edildiyindən bu maddənin həmin normativ-hüquqi aktlarla uyğunlaşdırılmasına ehtiyac vardır. Belə ki, minimum nikah yaşı və pensiya yaşı qadınlar və kişilər üçün eyniləşdirilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyində cinsi mənsubiyyətinə görə ayrı-seçkilik yolverilməzdir. Bu əməlin törədilməsinə görə qanunvericilikdə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur (Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsi). Qanunun 17-ci maddəsinə görə cinsi-mənsubiyyətə görə ayrı-seçkiliyə məruz qalan şəxslərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada zərər ödənilir.

Ötən ildə olduğu kimi 2020-ci ildə də Dövlət Komitəsinə daxil olan müraciətlərin təhlili göstərir ki, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol verilməsi ilə bağlı ən geniş yayılmış hallar özəl sektorda hamilə və himayəsində azyaşlı uşağı olan analarla əmək müqaviləsinə xitam verilməsi, işə qəbul zamanı əks cinsin nümayəndələrinə üstünlüyün verilməsi, işləyən analar üçün nəzərdə tutulmuş güzəştlərin nəzərə alınmaması və seksual qısnama ilə bağlı olmuşdur.

Bu istiqamətdə qanunvericilikdə məsuliyyətin müəyyən edilməsinə, həmçinin iş yerlərində gender mədəniyyətinin formalaşdırılması üçün geniş maarifləndirmə işinin aparılmasına ehtiyac vardır.

2020-ci ildə alınan məlumatlara görə iş yerlərində seksual qısnama ilə bağlı faktlar qeydə alınmamışdır. Lakin son illərdə müşahidə olunan intihar hallarında cinsi qısnama və seksual xarakterli şantaj əlamətləri nəzərə çarpır.

**2019-2020-ci illərdə respublika ərazisində baş vermiş özünü öldürmə və özünü öldürməyə cəhd hadisələri üzrə statistik məlumat**

| № | İllər | Özünü öldürmüş şəxslərin sayı | Özünü öldürməyə cəhd etmiş şəxslərin sayı | Yetkinlik yaşına çatmayan şəxslərin sayı | Kişi | Qadın |
|---|---|---|---|---|---|---|
| 1. | 2019 | 585 | 863 | 71 | 839 | 609 |
| 2. | 2020 | 597 | 967 | 65 | 928 | 636 |

***Cədvəldən göründüyü kimi, kişilər arasında intihar halları qadınlara nisbətən daha çox baş verir.***

**Dövlət Komitəsi tərəfindən iş yerlərində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması məqsədilə genderə həssas yanaşmanın təşviqi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.**

İl ərzində Dövlət Komitəsi dövlət orqanlarında (qurumlarında) və həmçinin özəl şirkətlərdə gender məsul şəxslərin bilik və bacarıqlarının artırılmasına yönəlmiş fəaliyyətlər həyata keçirmişdir. Dövlət Komitəsi 2020-ci ilin oktyabr ayı *ərzində "Genderə məsul şəxslərin vəzifələri və gender məsələlərinin təhlili"* adlı təlimlər (5 təlim) təşkil etmişdir. Təlimlərdə 60-a yaxın təşkilatın, nazirliklərin, dövlət komitələrinin, agentliklərin, dövlət xidmətlərinin və səhmdar cəmiyyətlərinin gender məsələləri üzrə məsul şəxsləri iştirak etmişdir. Təlimlərdə gender bərabərliyinin təbliğ olunması, idarəetmədə genderə həssas yanaşmanın tətbiqi, gender əsaslı zorakılığın qarşısının alınması istiqamətində məlumatlar verilmişdir.

## Gender əsaslı zorakılıq: məişət zorakılığının qarşısının alınması

Ölkəmizdə məişət zorakılığının qarşısının alınması sahəsində bir sıra mühüm qərarlar qəbul edilmişdir. 2020-ci ilin noyabr ayında qəbul edilmiş "Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" gender əsaslı zorakılıqla mübarizənin daha geniş miqyasda və əsaslı olaraq aparılması üçün yeni bir mərhələyə keçidi təmin etdi.

2020-ci ilin sonunda Fəaliyyət Planının effektiv icrası məqsədilə məişət zorakılığının qarşısının alınması sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması məqsədilə müvafiq qurumların nümayəndələrindən ibarət işçi qrup yaradılmışdır. Fəaliyyət Planında nəzərdə tutulan bir sıra sənədlərin hazırlanması işinə başlanılmışdır.

Məişət zorakılığı ilə bağlı Məlumat Bankına 2020-ci ildə də baş vermiş məişət zorakılığı halları ilə bağlı məlumatlar daxil edilmişdir.

*2019-cu ildən etibarən məhkəmə qərarlarında "Məişət zorakılığının aradan qaldırılması haqqında" Azərbaycan Respublikasının Qanunu 23 dəfə, "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu 16 dəfə tətbiq olunmuşdur.*

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə 2019-2020-ci illərdə daxil olmuş vətəndaş müraciətlərinin təhlili**

| Müraciətin məzmunu | Ərizə sayı (2019-cu il) | Ərizə sayı (2020-ci il) |
|---|---|---|
| Məişət zorakılığı | 242 | 179 |
| Cinsi zorakılıq | 29 | 22 |
| Erkən nikaha məcbur etmə | 6 | 7 |
| Uşaqlara qarşı zorakılıq | 28 | 40 |

*Cədvəldən göründüyü kimi 2019-cu ildə Komitəyə məişət zorakılığı ilə bağlı 242 müraciət daxil olmuşdursa, 2020-ci ildə bu rəqəm 179 olmuşdur.*

***Kütləvi informasiya vasitələrindən daxil olmuş 9 məişət zorakılığı faktı əsasında araşdırma aparılmış aidiyyəti üzrə əlaqədar qurumlarla məsələnin həlli istiqamətində işlər həyata keçirilmişdir. Baş vermiş məişət zorakılığı hadisəsi ilə bağlı 3 halda sığınacağa yerləşdirilmə təmin edilmiş, 3 ölüm hadisəsi nəticəsində uşaqların vəziyyəti ilə bağlı daimi nəzarət və monitorinqlər aparılmış, həmin ailələr nəzarətə götürülmüşdür.***

Komitə tərəfindən məişət zorakılığı ilə bağlı Rayon İcra Hakimiyyətlərinə göndərilmiş müraciətlər əsasında 8 qısamüddətli mühafizə orderi verilmişdir.

*AR Ədliyyə Nazirliyindən daxil olmuş rəsmi məlumata əsasən*:

**2020-ci il ərzində** məişət zorakılığından zərərçəkmiş şəxslərə **məhkəmələr tərəfindən 2 uzunmüddətli** (Bakı şəhəri Sabunçu rayonu və Tərtər rayonu üzrə), isə **38 qısamüddətli mühafizə orderi** verilmişdir.

**2019-cu il ərzində** isə məişət zorakılığından zərərçəkmiş şəxslərə yerli icra hakimiyyəti orqanları tərəfindən **32 qısamüddətli mühafizə orderi** verilmişdir.

*2019-cu illə müqayisədə 2020-ci ildə məişət zorakılığından zərər çəkmiş şəxslərə verilən qısamüddətli mühafizə orderlərinin sayı artmışdır. Bu da məişət zorakılığının qarşısının alınması sahəsində yerli icra hakimiyyətlərində yaradılmış «Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları»nın fəaliyyətinin gücləndirilməsi istiqamətində Komitə tərəfindən həyata keçirilən tədbirlərin nəticəsidir.*

**2020-ci ildə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən** daxil olmuş məlumatda yanlız **6 nəfər** məişət zorakılığından zərərçəkmiş qadına xidmət göstərilməsi əks olunmuşdur. Onlardan: **4-ü fiziki zorakılıq, 2-si isə fiziki və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərdən** zərər çəkmişdir. Zərərçəkmiş şəxslərdən 2 nəfər həyat yoldaşı, 3 nəfər keçmiş həyat yoldaşı, 1 nəfər isə keçmiş həyat yoldaşının ailəsi tərəfindən zorakılığa məruz qalmışdır.

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi arasında məişət zorakılığından zərər çəkmiş şəxslərə hüquqi yardımın təşkilinə dair üçtərəfli anlaşma memorandumu çərçivəsində 2020-ci il ərzində 91 aztəminatlı ailədən olan qadına hüquqi yardım göstərilmişdir.

***2020-ci il ərzində gender əsaslı zorakılıqla bağlı 85 cinayət işi üzrə 103 şəxs barəsində prokurorluq orqanları, 291 cinayət işi üzrə 291 şəxs barəsində daxili işlər orqanları tərəfindən ümumilikdə 376 cinayət işi üzrə 394 şəxs barəsində araşdırma aparılmış və müvafiq qərarlar qəbul edilmişdir.***

Daxili İşlər Nazirliyi tərəfindən qadın və qızların ictimai mənəviyyata zidd əməllərə, narkotik vasitələrin istehlakına təhrik edilməsi, "alver" obyektinə çevrilməsi, habelə qadın hüquqlarının pozulması hallarının qarşısının alınması üzrə profilaktik tədbirlərin və əməliyyat-axtarış fəaliyyətinin gedişi davamlı nəzarətdə saxlanılmışdır. Qadınların təqsirləndirilən və ya zərərçəkmiş şəxs

qismində keçdikləri bütün cinayət işləri, o cümlədən materiallar mütəmadi təhlil olunmuş, onları cinayətə təhrik edən amillərin öyrənilib aradan qaldırılması, aidiyyəti orqan və təşkilatlara zəruri vəsatətlər verilməsi təmin edilmişdir.

Ailə münaqişəsi zəminində daxil olmuş məlumatlar üzrə görülən operativ cavab tədbirləri ilə 10.587 hüquqazidd əməlin qarşısı alınmışdır.

***2020-ci ildə ölkə üzrə qadınlara qarşı 5176, o cümlədən zorakılıqla müşayiət olunan 2067 cinayət qeydə alınmışdır. Həmin cinayətləri törətmiş 2414 şəxs məhkəmə məsuliyyətinə cəlb olunmuşdur.***

***Cinayətlərin 973-ü qısqanclıq, ailə münaqişəsi və s. məişət zəminində baş vermişdir.***

***Qlobal pandemiya ilə bağlı əksər dünya ölkələrində qadınlara qarşı cinayətlərin sayının artmasına baxmayaraq, ölkəmizdə həmin əməllərin, o cümlədən zorakılıqla bağlı olanların sayı 2019-cu il ilə müqayisədə 9% azalmışdır.***

2020-ci ildə ailədaxili zorakılıq halları barədə cəmiyyətdə gedən fəal müzakirələri nəzərə alaraq, Dövlət Komitəsi müvafiq zorakılığın baş vermə intensivliyinə dair sorğu keçirmişdir.

**Ailədə zorakılıq hallarının baş vermə bölgüsü, faizlə**




| | Ailədə zorakılıq hallarının baş vermə bölgüsü, faizlə |
|---|---|
| bəli, tez-tez baş verir | 1,3 |
| zorakılığın nə olduğunu bilmirəm | 12,9 |
| bəli, hərdən baş verir | 20,1 |
| xeyir, baş vermir | 65,7 |

**Qeyd:** Ailədə zorakılıq halları ilə bağlı keçirilən sorğuda respondentlərin cavablarına əsasən, 1,3% zorakılığın tez-tez baş verdiyini bildirsə də, 65,7% ümumiyyətlə ailələrində zorakılıqla üzləşmədiklərini qeyd etmişdir.

Dövlət Komitəsi ailələrdə daha çox kimin zorakılığa məruz qaldığını müəyyən etmək üçün sorğu keçirmişdir.

**Ailədə zorakılıq hallarının kimə qarşı baş verməsinin bölgüsü, faizlə**




**Qeyd:** Sorğuda iştirak edən qadın respondentlərin 68,2%-i, kişi respondentlərin isə 15,1%-i onlara qarşı zorakılıq hallarının baş verdiyini qeyd etmişlər. Kişilərin 84,9%-i, qadınların isə 31,8%-i isə sualı cavablandırmamışdır.

*Qadınlara qarşı cinayətlərin 3%-ni (151-i) cinsi toxunulmazlıq və cinsi azadlıq əleyhinə olan cinayətlər, 0,4%-ni (21-i) zorlamalar təşkil etmiş, 18,8%-i (5176-dan 973-ü) və yaxud hər beşincisi qısqanclıq və sair ailə-məişət münaqişələri səbəbindən baş vermişdir.*

*2020-ci ildə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində155 insan alveri və 5 məcburi əmək cinayəti aşkarlanmış, bu hüquqazidd əməllərin qurbanı olan 94 şəxs müəyyən edilmişdir (90-ı qadın, 4-ü kişi).*

Məişət zorakılığının dörd növü olan psixoloji, fiziki, cinsi və iqtisadi zorakılığın ailədə baş verməsi əksər hallarda ailələrin dağılmasına gətirib çıxarır.

**2019-2020-ci illərdə nikah və boşanmaların sayı**

| | Nikahların sayı | Boşanmaların sayı | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | nikahların sayı | boşanmaların sayı |
| 2019-cu il üzrə | 63869 | 17148 | 6,4 | 1,7 |
| 2020-ci il üzrə | 35348 | 14628 | 3,5 | 1,5 |

*Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2019-cu ildə nikahların sayı 63869 olsada, pandemiya ilə əlaqədar olaraq 2020-ci ildə nikahların sayı kəskin azalaraq 35348 olmuşdur. Boşanmaların sayına gəldikdə isə 2019-cu ildə bu rəqəm 17148, 2020-ci ildə 14628 olmuşdur.*

*2020-ci il ərzində COVİD-19 pandemiyası ilə əlaqədar olaraq tətbiq edilən qapanmalar ailə münasibətlərinə daha çox birgə vaxt keçirmək və işləyən valideynlərin uşaqları ilə daha yaxından maraqlanması və onlarla birlikdə olmaları baxımından müsbət təsir göstərmişdir. Lakin bütün dünyada olduğu kimi karantin rejimi ölkəmizdə də baş vermiş zorakılıq hallarına təsirsiz qalmamışdır. Ailələrdə psixo-sosial vəziyyətin gərginləşməsinə və nikah münasibətlərinin pozulması hallarına da gətirib çıxarmışdır.*

*Xüsusi Karantin rejiminin ailədaxili münasibətlərə təsirini öyrənmək məqsədilə Dövlət Komitəsi tərəfindən 648 respondentin iştirakı ilə araşdırma aparılmışdır.*

**Karantin dövründə birlikdə keçirilən vaxta vətəndaşların münasibəti, faizlə**




| | Karantin dövründə ailəliklə gün boyu birlikdə olmaqdan razılığın bölgüsü, faizlə |
|---|---|
| bəli, razıyam | 58,2 |
| qismən razıyam | 40,6 |
| xeyr, razı deyiləm | 1,22 |

**Qeyd:** Karantin zamanı birgə vaxt keçirməyə münasibəti öyrənən zaman sorğuda iştirak edənlərin 58,2%-i karantin dövründə ailəliklə gün boyu birlikdə olmaqdan “razı” olduğunu, 40,6%-i “qismən razı” olduğunu, 1,2% isə “razı olmadığını” bildirmişdir.

**Komitə tərəfindən məişət zorakılığının qarşısının alınması sahəsində bir sıra tədbirlər və layihələr həyata keçirilmişdir.**

- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə həyata keçirdiyi “Göyçay rayonunda qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsi və Qadın Resurs Mərkəzinin yaradılması” layihəsi çərçivəsində qadınlar üçün “Məişət zorakılığı” mövzusunda təlimlər təşkil olunmuşdur.
- Qadın Resurs Mərkəzləri tərəfindən əhalinin, xüsusilə gənc ailələrin iştirakı ilə məişət zorakılığı mövsuzunda maarifləndirmə tədbirləri həyata keçirilmişdir.
- “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sığınacağına yerləşdirilmiş məişət zorakılığından zərər çəkmiş qadınların hüquqlarının müdafiəsi zamanı yaranan problemlərin həllinə dəstək məqsədilə görüş keçirilmişdir.

- Avropa İttifaqının dəstəyi, Litva və Avstriyadan olan tərəfdaş təşkilatlar və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə tərəfdaşlığı ilə Azərbaycanda 2020-ci ilin sentyabr və 2021-ci ilin mart aylarını əhatə edəcək “Məişət zorakılığı qurbanlarının təhlükəsizliyini təmin etmək və onları dəstəkləmək üçün dövlət qurumları və yerli səviyyəli istiqamətləndirmə mexanizmlərinin potensialının artırılması” üzrə Tvinninq layihəsinin təqdimatı keçirilmişdir.

**Qız uşaqlarının erkən yaşda evliliyinin aradan qaldırılması**

***Erkən nikah hallarının dinamikasında azalma qeydə alınsa da, onun tamamilə aradan qaldırılması hələ də mümkün olmamışdır.***

***2020-ci ildə 165 nəfər 18 yaşadək qızın nikahı icra hakimiyyətləri tərəfindən qeydə alınmışdır.***

***2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 1917 nəfər təşkil etmişdir. 2019-cu ildə bu rəqəm 2320 olmuşdur.***

**Ananın yaşına görə diri doğulanların sayı**

| Ananın yaşı | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Nəfər | | | | | | | | | |
| Diri doğulanların sayı - cəmi | 116994 | 141901 | 165643 | 166210 | 159464 | 144041 | 138982 | 141179 | 126571 |
| o cümlədən aşağıdakı yaş qruplarında olan analar tərəfindən doğulanlar: 15-17 | 1864 | 2743 | 4103 | 2895 | 2809 | 2421 | 2129 | 2320 | 1917 |

*Cədvəldən göründüyü kimi 18 yaşadək analar tərəfindən doğulanların sayında illər üzrə azalma müşahidə edilir.*

*Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 176-1-ci maddəsində qadını nikaha daxil olmağa məcbur etməyə görə cinayət məsuliyyətinin müəyyən edilməsinə baxmayaraq, 2020-ci ildə qadını nikaha daxil olmağa məcbur etmə ilə bağlı cəmi bir cinayət qeydə alınmışdır (yetkinlik yaşına çatmayan şəxslərə qarşı belə fakt qeydə alınmamışdır). Bərabərlik hüququnu pozma və erkən nikahla bağlı isə cinayət hadisəsi qeydə alınmamışdır.*

**Respublikanın iqtisadi rayonları üzrə**
**2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı**

| İqtisadi rayonların adları | Uşaqların sayı, nəfər |
|---|---|
| Azərbaycan Respublikası | 1917 |
| Bakı şəhəri | 95 |
| Abşeron iqtisadi rayonu | 36 |
| Gəncə-Qazax iqtisadi rayonu | 325 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 65 |
| Lənkəran iqtisadi rayonu | 306 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 91 |
| Aran iqtisadi rayonu - cəmi | 698 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 93 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 40 |
| Dağlıq-Şirvan iqtisadi rayonu | 109 |
| Naxçıvan Muxtar Respublikası | 59 |

*Cədvəldən görünür ki, Respublikanın iqtisadi rayonları üzrə 2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı ən çox Aran iqtisadi rayonu üzrə 698 nəfər, Gəncə-Qazax iqtisadi rayonu üzrə 325 nəfər, Lənkəran iqtisadi rayonu üzrə 306 nəfər və Dağlıq-Şirvan iqtisadi rayonu üzrə 109 nəfər qeydə alınmışdır.*

*Ən az göstərici isə Kəlbəcər–Laçın iqtisadi rayonu üzrə 40 nəfər qeydə alınmışdır.*




**Erkən nikahların qarşısının alınması ilə bağlı işlər davam etdirilmişdir.**

➢ Erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələri barədə yeniyetmə və gənclərin maarifləndirilməsi işinin daha məqsədyönlü şəkildə aparılmasının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli, 213 nömrəli Qərarı ilə təsdiq edilmiş “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası”nın müzakirəsi məqsədilə 13 iyul 2020-ci il tarixdə aidiyyəti dövlət orqanlarının iştirakı ilə video konfrans keçirilmişdir.

➢ Yeniyetmə və gənclərin erkən nikah hallarının fəsadları barədə maarifləndirilməsi məqsədilə “18 yaşadək evlilik-uşaq evliliyidir!” mövzusunda elektron poster hazırlanaraq insanların ictimai nəqliyyat vasitəsi kimi daha çox istifadə etdiyi Bakı Metropoliteni stansiyalarının reklam lövhələrində yerləşdirilməsi üçün Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyətinə göndərilib.

➢ Hüquqpozmalara şərait yaradan təhsildən yayınma hallarının qarşısının alınması sahəsində görülmüş tədbirlər nəticəsində 60 nəfər, o

cümlədən 21 qız müəyyən edilərək onların təhsilə qaytarılmaları təmin olunmuşdur.




- 2019-2020-ci illərdə "Məktəblinin dostu" layihəsi çərçivəsində layihənin tətbiq olunduğu ümümi təhsil müəssisələrində layihə psixoloqları ilə şagirdlərin söhbəti zamanı ümumilikdə 35 nəfər şagirdin təhsil müəssisəsindən kənarda zorakılığın (5 nəfər seksual zorakılığa, 7 nəfər fiziki zorakılığa, 5 nəfər psixi zorakılığa və 18 nəfər qısnamaya məruz qalmaqla) müxtəlif növlərinə məruz qalması aşkar olunmuşdur.
- Komitə "Gender və erkən nikahlar" mövzusunda onlayn təlim keçirmişdir. Təlim Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən həyata keçirilən "Qafqazda Aztəminatlı Məcburi Köçkün və Yerli Əhalinin İqtisadi və Sosial İnkişafı" (EPİC) layihəsi ilə əməkdaşlıq çərçivəsində təşkil olunmuşdur.
- Komitə və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə "Göyçay rayonunda qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsi və Qadın Resurs Mərkəzinin yaradılması" layihəsi çərçivəsində qadınlar üçün "Erkən nikahlar" mövzusunda təlimlər keçirilmişdir.
- Komitə tərəfindən "Erkən nikah və onun fəsadları" mövzusunda video rolik (elektron təlim) hazırlanmışdır. Həm uşaq, həm də valideyn auditoriyası üçün nəzərdə tutulan təlimdə, qanunla müəyyən edilmiş qaydada bağlanmış nikahlar, erkən nikah anlayışı və onun fəsadları ilə bağlı ətraflı məlumat verilmişdir.

**2020-ci ildə də uşaqların doğulanadək cins seçimi (selektiv abortlar) problem olaraq qalır.**

**2020-ci ildə ananın nikah vəziyyətinə görə doğulanların cins bölgüsündə sayı, nəfər**

| | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | oğlanlar | Qızlar |
| Doğulanların sayı – cəmi | 126571 | 67407 | 59164 |
| o cümlədən: | | | |
| nikahları rəsmi qeydə alınmış analar tərəfindən | 108857 | 58219 | 50638 |
| nikahları rəsmi qeydə alınmamış analar tərəfindən | 17714 | 9188 | 8526 |

*2020-ci ildə doğulan 126.571 uşağın 67.407 nəfəri oğlan, 59.164 nəfəri qız olmuşdur.*

*Bu uşaqlardan **108.857 nəfəri (58.219 oğlan, 50.638 qız) nikahları rəsmi qeydə alınmış** analar tərəfindən, **17.714 nəfəri (9.188 oğlan, 8.526 qız) nikahları rəsmi qeydə alınmamış** analar tərəfindən doğulmuşdur.*

*2019-cu ildə 141179 uşaq doğulmuşdur ki, onlardan **119726 nəfəri nikahları rəsmi qeydə alınmış** analar tərəfindən, **21453 nəfəri isə nikahları rəsmi qeydə alınmamış** analar tərəfindən doğulmuşdur.*

**Statistik göstəricilərdən aydın olur ki, 2020-ci ildə rəsmi və qeyri rəsmi nikahda olan analar tərəfindən doğulan uşaqların sayında 14608 nəfər azalma olmuşdur.**

*Doğulan uşaqlar arasında hər 100 qız uşağına düşən oğlanların sayı 2020-ci ildə 114 təşkil etmişdir. Bu da bioloji normadan (100 qız uşağına düşən 105-107 oğlan) artıq olmasını göstərir.*

*2019-cu ildə də 100 qız uşağına düşən oğlanların sayı 114 təşkil etmişdir.*

Azərbaycan şəhərlərində bu nisbət hər 100 qız uşağına 112 oğlan, kənd yerlərində hər 100 qız uşağına 115 oğlandır. Cinslər üzrə qeyri-bərabərlik oğul övladına verilən üstünlük, aşağı doğuş nisbəti və cinsə meyilli seçimin nəticəsidir.

**Selektiv abortların qarşısının alınması ilə bağlı həyata keçirilmiş tədbirlər:**




- Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİKA) təşkilatçılığı ilə Dövlət Komitəsinin əməkdaşları üçün 2020-ci ildə “Selektiv abortların qarşısının alınması” layihəsi çərşivəsində onlayn təlim təşkil olunmuşdur.




- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Səhiyyə Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərində yerləşən orta ixtisas və ilk peşə ixtisası təhsili müəssisələrində gənc və yeniyetmələrin ailə həyatına hazırlığı, onların reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində maarifləndirilməsi məqsədi ilə müvafiq sahə üzrə ekspertlərin iştirakı ilə “Reproduktiv sağlamlıq və ailə planlaşdırılması: mövcud problemlər və onların həlli” adlı tədbirlər həyata keçirilib. Tədbirlərdə iştirakçılara hamiləliyin süni yol ilə pozulmasının (abortların), xüsusilə də doğulacaq uşağın cinsinin seçilməsinə görə hamiləliyin süni yol ilə pozulmasının fəsadları barədə məlumat verilib.

## 2.2. Dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi

Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının (BMT) üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində qəbul edilmiş “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”də əks olunan 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulmuşdur. Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci məqsədi gender bərabərliyinə nail olmağa, həmçinin bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunmuşdur.

***Ümummilli Lider Heydər Əliyevin*** “Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” 2000-ci il 6 mart tarixli Fərmanı siyasi qərarların qəbul edilməsində qadınların imkanlarının genişləndirilməsi üzrə dövlət strategiyasının təməlini qoymuşdur. Bu Fərman bütün dövlət qurumlarında onların fəaliyyət növü nəzərə alınmaqla, qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunmasını nəzərdə tutur. Fərmanın icrası məqsədilə ***bütün yerli icra hakimiyyəti başçılarının müavinlərindən ən azı birinin qadın olması nəzərdə tutulmuşdur.***

***Əvvəlki illərlə müqayisədə dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların təmsilçiliyi artmaq üzrədir. Qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanlarında təmsilçiliklə bağlı mövcud vəziyyət bunu deməyə əsas verir.***

➢ **Qanunvericilik orqanında**

Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin nəticələri üzrə hazırda Məclis üzvlərinin 81.8%-ni kişilər, 18.2%-ni qadınlar təşkil edir. Milli Məclisin sədri qadın seçilmişdir. Ötən ildə olduğu kimi Milli Məclisdə daimi komitə rəhbərlərinin 13 nəfəri kişi, 2 nəfəri isə qadındır.

**Milli Məclis Aparatında çalışan dövlət qulluqçuları və digər əməkdaşların cins üzrə bölügüsü aşağıdakı kimidir:**

| | Kişilər | Qadınlar |
|---|---|---|
| Milli Məclisin komitə sədrləri | 86,7% | 13,3% |
| Milli Məclisin Aparatında şöbə müdirləri | 78,6 %, | 21,4% |
| Milli Məclisin Aparatında şöbə müdirlərinin müavinləri | 77% | 23% |
| Milli Məclisin Aparatında sektor müdirləri | 74,3 % | 25,7% |
| Milli Məclisdə digər vəzifələrdə çalışanlar | 45,6% | 54,4% |

*Cədvəldən görünür ki, Milli Məclisdə digər vəzifələrdə çalışanlar arasında qadınlar üstünlük təşkil edir.*

- **İcra hakimiyyəti orqanlarında**

*2020-ci ildə rəhbər vəzifələrdə çalışan qadınların sayında əhəmiyyətli dəyişiklik baş verməmişdir.*

**Rəhbər vəzifədə çalışan qadınların sayı, nəfərlə**

| | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|
| Vitse-prezident | - | 1 | 1 | 1 | 1 |
| Nazir | 1 | 1 | 1 | 1 | 1 |
| Nazir müavini | 3 | 3 | 6 | 8 | 8 |
| Dövlət Komitəsi sədri | 2 | 2 | 2 | 2 | 2 |
| Dövlət Komitəsi sədrinin müavini | 2 | 3 | 3 | 3 | 3 |
| Yerli icra hakimiyyəti başçısı | 1 | 1 | 1 | 1 | 1 |
| Yerli icra hakimiyyəti başçısının müavini | 79 | 77 | 79 | 76 | 72 |
| Ombudsman | 2 | 2 | 2 | 2 | 2 |

## Prokurorluq və daxili işlər orqanlarında

2020-ci ildə Prokurorluq orqanlarında işləyən işçilərin 75 nəfərini (7%-ni) qadınlar təşkil edir , onlardan da 8 nəfər qadın rəhbər vəzifələrdə çalışır.

Hazırda Respublikanın daxili işlər orqanlarında 2658 qadın (1212 nəfər böyük, orta və kiçik rəis heyəti, 1447 nəfər mülki heyət) xidmət aparır ki, bu da şəxsi heyətin ümumi sayının təxminən 10 faizini təşkil edir və bu say ildən-ilə artımla müşayət olunur. Qadınlar əsasən post-patrul, istintaq, təhqiqat, kadrlarla iş, pasport, statistika, beynəlxalq əməkdaşlıq, tibb, mətbuat, yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qurumlarında kargüzarlıq işində, "ASAN " xidmət və zəng mərkəzlərində xidmət edirlər.

*Rəqəmlərdən də göründüyü kimi, prokurorluq və daxili işlər orqanlarında çalışanlar içərisində kişilər üstünlük təşkil edir. Bu, daha çox həmin orqanların yerinə yetirdiyi funksiyaların spesifikliyindən qaynaqlanır. Lakin buna baxmayaraq, digər sahələrdə olduğu kimi həmin orqanlarda qadınların sayının artırılması istiqamətində məqsədyönlü iş aparılması, polis və prokurorluq orqanlarında çalışan qadın əməkdaşların sayının artması ilə yanaşı, məişət zorakılığına məruz qalmış şəxslərin ədalət mühakiməsinə daha rahat çıxış imkanları əldə etməsi baxımından da əhəmiyyətli olardı.*

## Diplomatik xidmət orqanlarında çalışanlar

Diplomatik xidmət orqanlarında ənənəvi olaraq kişilərin daha çox təmsil olunduğu aşkardır. Lakin bu sahədə rəhbər vəzifələrdə çalışan qadınların əldə etdiyi uğurlar və onların peşəkarlıqda digərlərindən heç də fərqlənmədiyini nəzərə alsaq, gələcəkdə onlara daha çox rəhbər postları daha cəsarətlə həvalə etmək olar.

**Diplomatik xidmət orqanlarında çalışan işçilər haqqında statistik məlumat**







**<u>Xarici İşlər Nazirliyi. Ümumi say</u>**



## Dövlət qulluğunda çalışanlar

Dövlət qulluğu vəzifələrində qadınların təmsilçiliyi bərabərliyə yaxındır. Müxtəlif yaş qruplarında onlar hətta kişiləri üstələyirlər. Məsələn, ali 3-cü təsnifat üzrə 30-34 yaş arası dövlət qulluğu vəzifələrini (inzibati vəzifələr) tutan qadınlar 19.3%, kişilər isə 13,1%, 4-7-ci təsnifatlar üzrə müvafiq olaraq qadınlar 20,8%, kişilər 15,9% təşkil edirlər. Digər yaş qruplarında da həm inzibati, həm də yardımçı vəzifələrə münasibətdə bunu müşahidə etmək mümkündür.

**2021-ci il yanvar ayının 1-i vəziyyətinə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin cins və yaş qruplarına görə bölgüsü (Yekuna görə faizlə, nəfər)**

| Yaş qrupları | Ali-3-cü təsnifatlar üzrə inzibati vəzifələr | | 4-7-ci təsnifatlar üzrə inzibati vəzifələr | | Dövlət qulluğunun yardımçı vəzifələri | |
|---|---|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər | qadınlar | kişilər |
| 25 yaşadək | 1,3 | 0,7 | 3,6 | 2,0 | 5,6 | 3,3 |
| 25-29 | 7,8 | 5,9 | 17,9 | 12,7 | 19,7 | 12,1 |
| 30-34 | 19,3 | 13,1 | 20,8 | 15,9 | 17,2 | 15,9 |
| 35-39 | 15,4 | 20,5 | 13,3 | 14,6 | 13,3 | 16,7 |
| 40-44 | 15,4 | 16,7 | 10,0 | 12,9 | 9,8 | 12,7 |
| 45-49 | 14,3 | 9,4 | 8,4 | 8,7 | 8,1 | 11,0 |
| 50-54 | 8,6 | 8,9 | 8,0 | 9,1 | 9,6 | 7,8 |
| 55-59 | 9,9 | 10,4 | 9,3 | 11,5 | 9,4 | 11,6 |
| 60-64 | 6,4 | 10,0 | 7,7 | 10,6 | 6,4 | 7,3 |
| 65+ | 1,6 | 4,4 | 1,0 | 2,0 | 0,9 | 1,6 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| nəfər | 616,0 | 1092,0 | 4520,0 | 14955,0 | 2203,0 | 3286,0 |

*Cədvəldən görünür ki, dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin əsas hissəsi 25-44 yaşda olanlardır.*

### Dövlət qulluğuna qəbul üzrə 2020-ci il ərzində keçirilmiş test imtahanında uğur əldə edən namizədlərin yaş və gender bölgüsü haqqında




| | 20-24 | 25-29 | 30-34 | 35-39 | 40-44 | 45-49 | 50-54 | 55-59 | 60 və yuxarı |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qadın | 318 | 331 | 101 | 32 | 6 | 5 | 1 | 0 | 0 |
| Kişi | 258 | 362 | 106 | 24 | 6 | 0 | 0 | 1 | 0 |

*Test imtahanlarında uğur əldə edən şəxslərin yaş qrupu üzrə bölgüsünə əsasən qadın namizədlərin 20-24 yaş qrupu (55.2%), kişi namizədlərin isə 25-29 yaş qrupu (52.2%) üzrə ən yüksək nəticə əldə etdiyi məlum olur.*

*20-24, 35-39, 45-49 və 50-54 yaş qrupu üzrə uğur əldə edən namizədlər arasında **qadınlar**, 25-29, 30-34 və 55-59 yaş qrupu üzrə uğur əldə edən namizədlər arasında **kişilər** üstünlük təşkil etmişdir.*

***40-44 yaş qrupu üzrə gender bərabərliyi müşahidə edilmişdir.***

### Müsahibələrdə uğur əldə edərək 2019-cu və 2020-ci illər ərzində inzibati vəzifələrə təyin edilmiş şəxslər haqqında




*2020-ci il ərzində müsahibələrdə uğur əldə edərək vakant vəzifələrə təyin edilmiş şəxslərin gender bölgüsü barədə məlumatlara diqqət etdikdə kişilərin həm müsabiqə, həm ümumi müsahibə, həm də daxili müsahibə üzrə təyinat almış şəxslər arasında üstünlük təşkil etdiyi müşahidə edilir.*

***Bütün yaş qrupları üzrə kişilər üstünlük təşkil etsə də, 20-24 yaş qrupu üzrə təyinat alanlar arasında qadınlar (54.16%) üstünlük təşkil edir.***

**Dövlət orqanları üzrə gender balansına dair statistik göstəricilər**

| Tutulmuş stat vahidlərinin ümumi sayı | | | İnzibati vəzifələr üzrə tutulmuş ştat vahidlərinin sayı | | | Yardımçı vəzifələr üzrə tutulmuş ştat vahidlərinin sayı | | |
|---|---|---|---|---|---|---|---|---|
| kişi | qadın | cəmi | kişi | qadın | cəmi | kişi | qadın | cəmi |
| 17418 | 8370 | 25788 | 14766 | 4990 | 19756 | 2652 | 3380 | 6032 |

***Cədvəldən də göründüyü inzibati və yardımçı vəzifələr üzrə gender təhlilinə diqqət etsək məlum olur ki, inzibati vəzifələrdə kişilər, yardımçı vəzifələrdə qadınlar üstünlük təşkil etmişdir.***

***Qeyd edilən göstəricilər təhlil edilərkən, qərarqəbuletmədə iştirak baxımından kişilərə nisbətdə qadınların sayının az olması nəzərə çarpır.***

**Məhkəmə hakimiyyəti üzrə təmsilçilik**

**Hakimlərin cins üzrə bölgüsü**

| İllər | Sayı, nəfərlə | | Cins bölgüsü, faizlə | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| 2015 | 62 | 451 | 12 | 88 |
| 2016 | 61 | 444 | 12 | 88 |
| 2017 | 57 | 423 | 12 | 88 |
| 2018 | 84 | 487 | 15 | 85 |
| 2019 | 78 | 460 | 14 | 86 |
| 2020 | 93 | 475 | 16 | 84 |

***Cədvəldən görünür ki, 2019-cu illə müqayisədə hakim qadınların sayı 15 nəfər artmışdır.***

- **Yerli özünüidarəetmə orqanlarında təmsilçilik.**

2019-cu ildə yerli özünüidarə orqanlarına seçilmiş kişilərin sayı 61 faiz, qadınların sayı isə 39 faiz təşkil etmişdir.

1 yanvar 2021-ci ilin tarixinə olan məlumata əsasən bələdiyyə qulluğunda çalışan 6000 nəfər işçinin 1700 nəfərini qadınlar, 4300 nəfərini kişilər təşkil etmişdir.

# 3. Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi (Maddə 7-16)

## 3.1. Əmək hüquqlarının həyata keçirilməsində gender bərabərliyinin təmin edilməsi

Azərbaycan Respublikasında dövlət məşğulluq siyasətinin prioritetlərindən biri də qadınların əmək bazarında iştirak və məşğulluq imkanlarının artırılmasıdır. Bütün sahələrdə olduğu kimi, əmək bazarında da qadınların rolu getdikcə artır.

*Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemi üzrə 7159 nəfər işçi çalışır, onlardan 3883 nəfəri qadın, 3276 nəfəri isə kişi əməkdaşları təşkil edir.*

*Dövlət Sosial Xidmətlər Agentliyinin tabeliyində olan sosial xidmət müəssisələrində 2020-ci il ərzində xidmətə götürülən 1581 nəfərin 53 faizini kişilər, 47 faizini isə qadınlar təşkil etmişdir.*

Son illər Azərbaycanda məşğulluq sahəsində gender fərqlərinin aradan qaldırılması üzrə hüquqi mühitin yaradılmasına yönəlik bir sıra addımlar atılıb.

Hüquqi təminatlara baxmayaraq, rəsmi statistik məlumatların analizi göstərir ki, hazırda Azərbaycanda əmək bazarında hələ də gender fərqləri mövcuddur.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2010-cu ildə məşğul əhalinin tərkibində məşğul qadınların sayı 2101,7 min nəfər təşkil etmiş və 2019-cu ildə bu göstərici 11,8 faiz artmışdır. Muzdla işləyənlərin sayında bu dövr ərzində qadınların xüsusi çəkisi 9,6 faiz artmışdır.

**2020-ci ildə məşğulluq və işsizlik**
**(sayı, min nəfər və cins üzrə bölgüsü, faizlə)**

| | Min nəfər | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Məşğul əhalinin sayı | 2351,5 | 2525,1 | 48,2 | 51,8 |
| İşsiz əhalinin sayı[1)] | 216,0 | 159,9 | 57,5 | 42,5 |
| İqtisadi fəal əhalinin sayı | 2567,5 | 2685,0 | 48,9 | 51,1 |
| İşsizliyin səviyyəsi | 8,4 | 6,0 | x | x |

*Ölkə üzrə iqtisadi fəal və məşğul əhalinin tərkibində kişilərin sayı qadınların sayına nisbətən bir qədər çox olmuşdur.*

*İşsizliyin səviyyəsi qadınlar arasında 57,5 faiz, kişilər arasında 42,5 faiz olmuşdur.*

*2020-ci ildə iqtisadi fəaliyyət növləri üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı kişilər üçün 830,2 manat, qadınlar üçün 525,6 manat olmuşdur. Qadınların orta aylıq nominal əməkhaqqının kişilərin orta aylıq nominal əməkhaqqına nisbəti 63,3 faiz olmuşdur.*

*2019-cu ildə ildə iqtisadi fəaliyyət növləri üzrə muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı kişilər üçün 663 manat, qadınlar üçün 335 manat olmuşdur. Qadınların orta aylıq nominal əməkhaqqının kişilərin orta aylıq nominal əməkhaqqına nisbəti 50,5 faiz təşkil olmuşdur.*

*2019-cu illə müqayisədə 2020-ci ildə qadınların orta aylıq nominal əməkhaqqının kişilərin orta aylıq nominal əməkhaqqına nisbəti artaraq 50,5 faizdən 63,3 faizə qalxmışdır.*

2020-ci ərzində əmək hüquqlarının pozulması ilə əlaqədar vətəndaşlardan daxil olmuş 10102 şikayət məzmunlu ərizə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən araşdırılmış və araşdırma zamanı 955 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Törədilmiş inzibati xətaya görə Xidmətin vəzifəli şəxsləri və məhkəmə orqanları tərəfindən vəzifəli və hüquqi şəxslər barəsində inzibati qərarlar qəbul edilərək 1716050 manat məbləğində inzibati qaydada cərimə tətbiq olunmuşdur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən təqdim edilmiş məlumatda əmək hüquqlarının pozulması ilə əlaqədar müraciət etmiş şəxslərin cinsi mənsubiyyət üzrə təsnifatı verilmir. Belə təsnifatın olmaması işəgötürənlər tərəfindən gender yanaşmasının necə tətbiq olunduğunu müəyyən etməyi çətinləşdirən amillərdən biridir.

2020-ci il ərzində Həmkarlar İttifaqlarına əmək hüquqlarının pozulması ilə bağlı daxil olmuş 1346 müraciətin 632-si qadınlar, 714-ü kişilər tərəfindən olmuşdur.

**01 aprel 2021-ci il tarixinə iqtisadi fəaliyyət növləri üzrə fərdi sahibkarların cins bölgüsündə qadınların sayı 21,3 faiz, kişilərin sayı isə 78,7 % təşkil edib.**

**01.05.2021-ci il tarixə vergi ödəyicilərinin (aktiv, dayandırılmış) (kişi və qadın) sayı barədə məlumat**




*Ölkədə iri, orta, kiçik və mikro sahibkarlıq fəaliyyəti ilə məşğul olan 1086982 nəfərin 855880 nəfəri kişi və 231102 nəfəri qadındır.*

*İri sahibkarlıq fəaliyyəti ilə məşğul olan 14 sahibkar arasında qadın yoxdur.*

*Orta sahibkarlıq fəaliyyəti ilə 273 kişi və 24 qadın, kiçik sahibkarlıq fəaliyyəti ilə 2895 kişi və 409 qadın, mikro sahibkarlıq fəaliyyəti ilə 852698 kişi və 230669 qadın məşğul olur.*

**2021-ci il aprelin 1-i vəziyyətinə statistik vahidlərin Dövlət reyestrində qeydiyyatda olan kişi və qadın fərdi sahibkarların say bölgüsü**

| İqtisadi və inzibati rayonlar | Cəmi | Kişilər | o cümlədən sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları: | | | | Qadınlar | o cümlədən sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları: | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | iri | orta | kiçik | mikro | | iri | orta | kiçik | Mikro |
| Azərbaycan Respublikası | 1086982 | 855880 | 14 | 273 | 2895 | 852698 | 231102 | 0 | 24 | 409 | 230669 |
| Bakı ş. | 303690 | 232640 | 7 | 128 | 1359 | 231146 | 71050 | 0 | 13 | 277 | 70760 |
| Abşeron iqtisadi rayonu | 58048 | 46230 | 3 | 28 | 227 | 45972 | 11818 | 0 | 5 | 24 | 11789 |
| Gəncə-Qazax iqtisadi rayonu | 149711 | 112466 | 1 | 24 | 245 | 112196 | 37245 | 0 | 1 | 38 | 37206 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 69364 | 55138 | 0 | 7 | 135 | 54996 | 14226 | 0 | 0 | 11 | 14215 |
| Lənkəran iqtisadi rayonu | 105721 | 82898 | 0 | 18 | 196 | 82684 | 22823 | 0 | 2 | 21 | 22800 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 68450 | 54362 | 1 | 13 | 109 | 54239 | 14088 | 0 | 0 | 7 | 14081 |
| Aran iqtisadi rayonu | 233245 | 191839 | 2 | 42 | 457 | 191338 | 41406 | 0 | 3 | 25 | 41378 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 27971 | 23203 | 0 | 5 | 49 | 23149 | 4768 | 0 | 0 | 3 | 4765 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 2953 | 2368 | 0 | 1 | 12 | 2355 | 585 | 0 | 0 | 0 | 585 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 35353 | 29575 | 0 | 6 | 86 | 29483 | 5778 | 0 | 0 | 3 | 5775 |
| Naxçıvan Muxtar Respublikası | 32476 | 25161 | 0 | 1 | 20 | 25140 | 7315 | 0 | 0 | 0 | 7315 |

*Müxtəlif fəaliyyət növləri üzrə fərdi sahibkarların gender bölgüsündən məlum olur ki, təhsil sahəsi istisna olmaqla, bütün fəaliyyət sahələrində sahibkar kişilər üstünlük təşkil edir.*

***Təhsil sahəsində 6742 nəfər qadın və 3731 nəfər kişi sahibkarlıq fəaliyyəti ilə məşğuldur.***

*Aşağıdakı cədvəldən göründüyü kimi, bütün fəaliyyət sahələri ilə müqayisədə qadınlar və kişilər* ***kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələri*** *ilə məşğul olmağa daha çox üstünlük verirlər.*

**2021-ci il yanvar ayının 1-i vəziyyətinə fəaliyyət növləri üzrə fərdi sahibkarların gender bölgüsü**

| Fəaliyyət növləri | Qadınlar | | Kişilər | |
|---|---|---|---|---|
| | sayı | faizlə | sayı | faizlə |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 81875 | 36,3 | 260107 | 31,1 |
| Mədənçıxarma sənayesi | 53 | 0,0 | 983 | 0,1 |
| Emal sənayesi | 3912 | 1,7 | 19045 | 2,3 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 5 | 0,0 | 68 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 52 | 0,0 | 685 | 0,1 |
| Tikinti | 808 | 0,4 | 20498 | 2,5 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 47743 | 21,1 | 180999 | 21,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2405 | 1,1 | 114426 | 13,7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 6614 | 2,9 | 36357 | 4,3 |
| İnformasiya və rabitə | 2118 | 0,9 | 8557 | 1,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 1135 | 0,5 | 3091 | 0,4 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 4234 | 1,9 | 10525 | 1,3 |
| Peşə, elmi və texniki fəaliyyət | 7986 | 3,5 | 15504 | 1,9 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 7327 | 3,2 | 14088 | 1,7 |
| Təhsil | 6742 | 3,0 | 3731 | 0,4 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2410 | 1,1 | 4488 | 0,5 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1788 | 0,8 | 12028 | 1,4 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 34457 | 15,3 | 77648 | 9,3 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 14194 | 6,3 | 53851 | 6,4 |
| **Cəmi** | **225858** | **100,0** | **836679** | **100,0** |

*Cədvəldən məlumdur ki, qadınlar adı çəkilən sahələrdə azlıq təşkil edir. Bu da qadınlar arasında kiçik sahibkarlığın inkişaf etdirilməsi üçün çoxsaylı işlərin həyata keçirilməsini zəruri edir.*

***2020-ci ildə Komitənin beynəlxalq təşkilatların dəstəyi ilə birgə icra etdiyi aşağıda göstərilən layihələr çərçivəsində məşğulluğuna dəstək verilmiş 107 qadın mikro sahibkarlıq fəaliyyətinə başlamışdır.***

- Komitənin 2011-ci ildən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə həyata keçirdiyi “Azərbaycanda kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” adlı texniki yardım layihəsi çərçivəsində **2020-ci il ərzində 57 nəfər qadın sahibkarlığa başlamışdır.** 529 nəfər qadın “Kompüter operatoru”,

"Mehmanxana inzibatçısı", "Aşpazlıq", "İş axtarmaq və CV yazmaq bacarıqları", "Dil kursları", "QHT-nin yaradılması və idarə edilməsi", "Əlilliyin Dərki", "Layihə yazılması. Fandreyzinq", "Risklərin təhlili və idarəetmə", "Maliyyə idarəetməsi", "Öz biznesini başla və inkişaf etdir", "Markalaşma, qablaşdırma və satış strategiyası", "Liderlik", "İş prespektivi", "Vergi uçotunun aparılması" və s. mövzularda təlimlərdə iştirak etmişdir.

- Komitə 2020-ci ildə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə "Göyçay rayonunda qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək göstərilməsi və Qadın Resurs Mərkəzinin yaradılması" layihəsi çərçivəsində məşğulluğuna dəstək göstəriləcək qadınlar üçün "Özünü təqdim etmə bacarıqları", "Liderlik bacarıqlarının inkişaf etdirilməsi", "Maliyyə savadlılığı", "Ailə büdcəsinin idarə olunması", "Biznesin təşkili və idarə olunması" mövzularında təlimlər keçirmişdir. Biznes fəaliyyətinə başlaması və mövcud bizneslərinin gücləndirilməsi üçün **28 nəfər qadına qeyri-pul şəklində maddi dəstək göstərilmiş,** qadınlar biznes planına uyğun olaraq avadanlıqlarla təmin olunmuşdur.

- Komitə "Sağlam Həyat Naminə" İctimai Birliyinin birgə əməkdaşlığı və British Petroleum Şirkətinin dəstəyi ilə "Qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək məqsədi ilə İcmada Ailəyə Dəstək Klubunun yaradılması" adlı layihə çərçivəsində 2020-ci ilin mart ayında Tovuz rayonunda qadınlara maliyyə savadlılığı, biznes bacarıqları ilə bağlı təlimlər keçmiş, **22 nəfər qadına biznes fəaliyyətinə başlaması və mövcud bizneslərinin gücləndirilməsi üçün qeyri-pul şəklində maddi dəstək göstərmiş,** biznes planlarına uyğun olaraq qadınları avadanlıqlarla təmin etmişdir.

**<u>Qadınlar arasında özünüməşğulluğun və sahibkarlığın inkişafı istiqamətində digər qurumlar tərəfindən həyata keçirilmiş tədbirlər</u>**

- 2020-ci ildə özünüməşğulluq proqramının icrası davam etdirilmişdir. Sahibkarlıq fəaliyyətinə həvəsləndirilməsi, gələcəkdə öz biznesini qurmağa köməklik göstərilməsi məqsədi ilə özünüməşğulluq proqramına müraciət etmiş 12,6 min nəfər şəxsdən 3,2 min nəfəri qadın olmuşdur.

- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan Dövlət Məşğulluq Agentliyi tərəfindən 2020-ci il ərzində 31272 qadın işlə təmin edilmişdir, 3193 qadın özünüməşğulluq proqramına cəlb olunmuşdur, 451 qadın peşə hazırlığına cəlb olunmuşdur, 29 qadın sosial iş yerlərində işlə təmin edilmişdir.

- 2020-ci ilin fevral ayında ölkənin 4 regionunda "Sahibkarlıq və biznesə başlama" mövzusunda keçirilən təlimlərdə sahibkarlıq fəaliyyətinə maraq göstərən 130-dan çox qadın iştirak etmişdir. Bundan başqa ölkənin iki regionunda toxuculuq və tikiş bacarığı olan və bu sahəyə maraq göstərən, müvafiq istiqamətdə evində işləmək istəyən 25 qadın müəyyənləşdirilmiş, toxuculuq və tikişlə bağlı müvafiq materiallar və avadanlıqlarla təmin olunmuş, onların məhsullarının satışına dəstək göstərilmişdir.

- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dövlət Məşğulluq Agentliyi tərəfindən qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması, onlar arasında sahibkarlığın və özünüməşğulluğun inkişaf etdirilməsi, işsiz və işaxtaran qadınların peşə hazırlığı və əlavə təhsilinin təmin edilməsi məqsədilə 2020-ci ildə bir sıra tədbirlər həyata keçirilmişdir. Agentlik tərəfindən təşkil edilən peşə hazırlığı kurslarında il ərzində 451 nəfər qadın "aşpaz", "qənnadçı", "vizajist", "xalçaçı", "dərzi", "bərbər" eləcə də digər peşələrə yiyələnmişdilər.

- Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin İnkişaf Proqramı (UNDP) və BMT-nin Əhali Fondu tərəfindən "Əlilliyi olan qadınların və Qarabağ müharibəsi veteranlarının

hüquqlarının və rifahının təmin edilməsi" layihəsi çərçivəsində Salyan və Masallı rayonlarında özünüməşğulluq proqramı üzrə 90 nəfər tam və 24 nəfər qismən avadanlıq və materiallar ilə təmin olunmuş, bu kateqoriyadan olan şəxslər üçün peşə hazırlığı, işaxtarma bacarığı kursları təşkil edilmiş, Virtual laboratoriya yaradılmış və İnklüziv İncəsənət Məktəbi fəaliyyətə başlamışdır.

- Özünüməşğulluq proqramı üzrə kiçik biznesə çıxışa dəstək verilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Dünya Bankının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə əməkdaşlığı çərçivəsində "Azərbaycanda Məşğulluğa Dəstək" layihəsi təsdiq olunmuş və 25 iyun 2020-ci ildə layihə üzrə kredit sazişi imzalanmışdır. Dəyəri 100 milyon ABŞ dolları təşkil edən layihə üzrə 2021-2025-ci illər ərzində 22 min nəfərin layihəyə cəlb olunması nəzərdə tutulmuşdur. Layihə çərçivəsində Bakı şəhəri və regionlarda yaşayan qadınların məşğulluğunun artırılması üçün onların özünüməşğulluğunun təmin edilməsi prioritet təşkil edir.

***2020-ci il ərzində kənd təsərrüfatı təyinatlı layihələrin maliyyələşdirilməsi məqsədilə ümumilikdə 448 qadın sahibkara 6753,0 min manat (4434,0 min manat kredit və 2319,0 min manat güzəştli kredit), 6478 kişi sahibkara 86346,0 min manat (54673,0 min manat kredit və 31673,0 min manat güzəştli kredit) məbləğində dövlət dəstəyi göstərilmişdir.***

*İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2020-ci il ərzində 74 qadın sahibkara 5.2 milyon manat güzəştli kredit verilmişdir. Bu layihələr hesabına 297 yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.*

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası (AQSİA) regionlarda yaşayan qadınların məşğulluğunun artırılması, onlar arasında mikro sahibkarlığın inkişafı istiqamətində müxtəlif tədbirlər həyata keçirmişdir.

AQSİA tərəfindən COVİD-19 pandemiyası dövründə qadın sahibkarlar üçün bizneslərində yaranan çətinliklərin ardan qaldırılması istiqamətində məsləhət xidmətləri və təlimlər təşkil edilmişdir.

AQSİA Heydər Əliyev Fondu və "Regional İnkişaf" İctimai Birliyinin həyata keçirdiyi "Biz birlikdə güclüyük" sosial aksiyasına qoşulmuş, Assosiasiya tərəfindən üzvlərin dəstəyi ilə 1000-ə yaxın ailəyə, digər tərəfdaş təşkilatlarla birgə isə ümumillikdə 5000 aztəminatlı ailəyə ehtiyaclarına uyğun dəstək göstərilmişdir.

AQSİA Vətən Müharibəsi dövründə Tərtər, Bərdə, Ağdam, Füzuli rayonlarında yerləşən mülkü əhaliyə yardım və əsgərlərimizə hərbi geyim dəstəyi göstərmişdir. Həmçinin Bakı şəhərində 30 şəhid və qazi ailəsi işlə təmin edilmiş, 2 gənc qızın təhsil xərcləri qarşılanmışdır.

2020-ci ilin 1 yanvar tarixindən etibarən aqrar sahədə subsidiyaların verilməsi Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə həyata keçirilir. Aparılmış maarifləndirmə tədbirləri nəticəsində EKTİS-də qeydiyyatdan keçmiş fermerlərin sayı 568888 nəfər olmuşdur. EKTİS-də qeydiyyatdan keçmiş fermerlərin 146160 nəfəri qadın, 422728 nəfəri isə kişi fermerlərdir. Hesabat dövründə bitkiçilik sahəsi üzrə subsidiya almış fermerlərin 103855 nəfəri qadın, 321875 nəfəri kişi, heyvandarlıq üzrə subsidiya almış fermerlərin 6862 nəfəri qadın, 66747 nəfəri kişi olmuşdur.

2018-ci ilin mart ayından başlayaraq Kənd Təsərrüfatı Nazirliyi ilə Dünya Bankının birgə həyata keçirdiyi İkinci Kənd İnvestisiya Layihəsi çərçivəsində 10-20 qadından ibarət Qadın İnkişaf Qruplarının yaradılmasına başlanılmışdır. Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə həmin Qadın İnkişaf Qrupları *Azərbaycan Kənd Qadınları Assosiasiyasında (AKQA)* birləşmiş və Asosiasiya Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

*Azərbaycan Kənd Qadınları Assosiasiyası tərəfindən hal-hazırda 16 rayonda 44 Qadın İnkişaf və Müəssisə Qrupunun milli şəbəkəsi yaradılmışdır. 44 qrupda ümumilikdə 540 qadın fəaliyyət göstərir. 36 qrup artıq öz biznesini qurmuş və onlar təsərrüfat, təsərrüfatdan kənar və qeyri-təsərrüfat sahələrinə aid olmaqla cəmi 120 kiçik biznesi idarə edirlər.*

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən PAŞA Holdinqin dəstəyi ilə həyata keçirilən "Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ)" layihəsi aqrar sahədə fəaliyyət göstərən qadınların dəstəklənməsi, onların bilik və bacarıqlarının artırılması, maliyyə və digər resurslara çıxışlarının asanlaşdırılması məqsədilə həyata keçirilir. Layihə çərçivəsində qadın fermerlər üçün bir sıra dəstək tədbirləri nəzərdə tutulmuşdur. Belə ki, müraciətçi fermerlərin təsərrüfatlarının ehtiyaclarına uyğun olaraq onlara təlim və maarifləndirmə dəstəyi, konsultasiya dəstəyi və ya avadanlıqlarla dəstək göstərilir. ***Layihə çərçivəsində kişilərlə nisbətdə qadınların fəallığını artırmaq məqsədilə 2020-ci il ərzində aşağıdakı tədbirlər həyata keçirilmişdir.***

- AFAQ layihəsinə müraciət etmiş, təlimləri uğurla tamamlamış və layihənin tələblərinə cavab verən 10 müxtəlif rayondan olan 35 fermer qadına təsərrüfatlarının ehtiyaclarına uyğun olaraq balsüzən, arı yeşikləri, seperator, yağ çəkən, süd sağan maşın, meyvə qurudan avadanlıqlar, yem və dən üyüdən maşınlarla dəstək göstərilmişdir.

- İsmayıllı, Şamaxı, Balakən, İmişli və Saatlı rayonlarından olan, layihəyə müraciət etmiş 75 fermer qadınla ehtiyac qiymətləndirməsi üzrə sorğular aparılmış, təsərrüfatlarına baxış keçirilmişdir.

- İsmayıllı rayonundan layihəyə müraciət edən 17 qadın fermerə biznes modulu üzrə "İstehsalın təşkili və bazara çıxış" və "Maliyyə resurslarına çıxış" mövzularında təlimlər keçilmişdir.

- Şəki və Şamaxı rayonlarında 40 arıçı fermer qadınla görüşlər keçirilmişdir. Görüşdə arıçılıq məhsullarının istehsalında keyfiyyət göstəriciləri, məhsulların qablaşdırılması, satışı, marketinqi və ixracı mövzularında bu sahənin mütəxəssisləri tərəfindən məlumatlar verilib.

***Azərbaycan Respublikası Hökuməti ilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) birgə icra etdiyi "Qadınların iqtisadi güclərinin artırılması yolu ilə ərzaq təhlükəsizliyi və kənd yerlərində yaşayış imkanlarının yaxşılaşdırılması" layihəsi çərçivəsində 2020-ci ildə aşağıdakı tədbirlər görülmüşdür.***

- *Layihə tərəfdaşlarının və layihəyə qoşulmuş qadın fermerlərin iştirakı ilə ilkin planlama seminarı keçirilmişdir. Seminarın əsas məqsədi layihə tərəfdaşları ilə iş planı üzrə interaktiv müzakirələr aparmaq, tərəfdaşların rolu və öhdəlikləri barədə institusional tənzimləmələrin həyata keçirilməsi qaydalarını aydınlaşdırmaq olmuşdur.*

- *FAO ilə birgə Şəki, İsmayıllı, Şamaxı və Balakən rayonlarında 68 müraciətçi qadının ehtiyaclarının qiymətləndirilməsi üzrə sorğu aparılmış, ehtiyacların qiymətləndirilməsi əsasında hesabat və təlim proqramı hazırlanmışdır. Təlimdə 50 qadın, habelə iştirak edəcək yerli mütəxəssislər müəyyən edilərək layihəyə cəlb olunmuşdur.*

- *Gender üzrə beynəlxalq mütəxəssisin rəhbərliyi ilə ölkə üzrə Gender Qiymətləndirilməsi sənədinin hazırlanması işlərinə başlanılmış və layihənin hədəf rayonları müəyyənləşdirilmişdir.*

2020-ci ilin fevral ayından fəaliyyətə başlayan və KOBİA-nın stukturuna daxil olan Xaçmaz KOB İnkişaf Mərkəzində innovativ sahibkarlığa, startaplara və ailə biznesinə dəstək, qadınlar və gənclər arasında sahibkarlığın təşviqi, KOB-ların maarifləndirilməsi üzrə təlim və seminarlar, masterklass xidmətləri təqdim olunur.Həmçinin müxtəlif layihələr çərçivəsində verilən sub-qrant vəsaiti hesabına Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən qadınlar əl işlərinin satışı, gözəllik salonu, peşəyönümlü əl işləri kursu sahələrində öz bizneslərinə başlamışdır.

***Ümumiyyətlə, KOBİA tərəfindən qadın sahibkarlığının inkişafına yönəlik bir sıra tədbirlər həyata kerçirilmişdir:***

- Xaçmaz KOB İnkişaf Mərkəzi və Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) birgə əməkdaşlığı çərçivəsində Quba-Xaçmaz iqtisadi rayonunda qadınlar üçün təlimlər keçirilmişdir. Təlimlərdə maliyyə savadlılığına ehtiyac, maliyyə vəsaitinin hərəkəti, gəlir və xərclərin təhlili, maliyyə hədəfləri və planlaşdırmanın faydası, yığım metodları və bacarıqları, qənaət vərdişləri, fövqəladə hadisələr üçün xərclər və ehtiyat fondu, kredit üzrə xərclər barədə məlumatlar verilmişdir.

- Qadın sahibkarlar üçün "İnsan resurslarının idarə edilməsinin effektiv üsulları" və "Antikorrupsiya idarəetmə sistemi beynəlxalq standartının özəl sektorda tətbiqi" mövzularında təlimlər keçirilmişdir.

- Bakı, Sumqayıt, Xaçmaz, Quba, Qusar, İsmayıllı, Qəbələ və s. şəhər və rayonlardan sahibkar qadınların iştirakı ilə "Qadın biznes inkubatorlarının yaradılmasının təşviqi" mövzusunda vebinarlar keçirilmişdir.

- KOBİA-nın dəstəyi ilə Füzuli rayonunda məcburi köçkün qadınlar üçün yeni biznes sahələri (çörək, şirniyyat və inkubator sexləri, gözəllik salonu, damazlıq keçi və qoyunçuluq təsərrüfatları) yaradılıb. 5 Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) təsis edilib.

*Mövcud vəziyyətin təhlilinin nəticələri, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar, xüsusilə orta sahibkarlıq subyektləri (iri sahibkarlıqla məşğul olanlar arasında qadın sahibkar yoxdur) arasında qadınların xüsusi çəkisinin az olması onu deməyə əsas verir ki, qeyri-dövlət sektorunda qadınların məşğulluq səviyyəsinin artırılması istiqamətində aparılan işlər bir qədər də gücləndirilməlidir. Bunun üçün hökumət tərəfindən qadın sahibkarlığının inkişafı üzrə məqsədli proqramların hazırlanması imkanları nəzərdən keçirilməlidir. Belə proqramlar qadınların iqtisadi təşəbbüskarlığının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artıra bilər. Proqramlar hazırlanan zaman xüsusilə kənd yerlərində qadın məşğulluğu məsələsi diqqət mərkəzində olmalıdır.* ***Kənd yerlərində qadın məşğulluğunun daha perspektivli istiqamətlərinin müəyyənləşdirilməsi vacibdir.***



## 3.2. Təhsil hüquqlarının həyata keçirilməsində bərabər imkanların təmin edilməsi

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Azərbaycan Respublikasında təhsil insan hüquqları haqqında beynəlxalq konvensiyalara və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır, təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir.

Azərbaycan hökumətinin təhsil siyasətində qadınların təhsilin bütün pillə və səviyyələrində fəal iştirakı və karyera inkişafı əsas prioritetlərdən biridir. Məhz bu siyasətin nəticəsidir ki, təhsil müəssisələrinin rəhbərləri, təhsilalanlar və təhsilverənlər arasında qadınların çəkisi artmaqdadır.

**Təhsil Nazirliyinin birbaşa tabeliyində fəaliyyət göstərən ali təhsil müəssisələri, orta ixtisas təhsili müəssisələri və ilk-peşə ixtisas təhsili müəssisələrinin işçi heyəti haqqında məlumat**

| Təhsil pilləsi | Müəssisə-lərin sayı | Cəmi işçilərin say | Onlardan qadınların sayı | Rəhbər vəzifədə çalışanların sayı | Onlardan qadınlar | Müəllimlərin sayı | Onlardan qadınlar |
|---|---|---|---|---|---|---|---|
| Ali təhsil müəssisələri | 20 | 18586 | 11819 | 1311 | 511 | 10019 | 5852 |
| Orta ixtisas təhsil müəssisələri | 37 | 6799 | 4997 | 325 | 170 | 4362 | 3336 |
| İlk-peşə ixtisas təhsili müəssisələri | 102 | 4893 | 2843 | 1847 | 879 | 1456 | 1057 |

*Cədvəldən görünür ki, ali təhsil müəssisələri, orta ixtisas təhsili müəssisələri və ilk-peşə ixtisas təhsili müəssisələrinin işçiləri arasında qadınlar üstünlük təşkil edir. Rəhbər vəzifələrdə çalışanlar arasında orta ixtisas təhsili müəssisələri istisna olmaqla, kişilər üstünlük təşkil etmişdir.*

**2020/2021-ci tədris ilinin əvvəlinə təhsil müəssisələrinin tipləri üzrə təhsilalanların sayı**
*(Yekuna görə, yaş və cins bölgüsü, nəfər, faizlə)*

| Təhsil müəssisələrinin növləri | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Ümumi təhsil müəssisələrində | 78,6 | 80,8 | 46,4 | 53,6 |
| Peşə təhsili müəssisələrində[1)] | 7,2 | 7,6 | 45,7 | 54,3 |
| Orta ixtisas təhsili müəssisələrində | 3,8 | 2,0 | 62,5 | 37,5 |
| Ali təhsil müəssisələrində və doktoranturada | 10,4 | 9,6 | 49,2 | 50,8 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 47,1 | 52,9 |
| nəfər | 978582 | 1099771 | x | x |

***2021-ci ilin əvvəlinə Azərbaycanda hər 100 təhsil alanın 47-si qadın, 53-ü kişidir.***

“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycanda ümumi orta təhsil icbaridir. Son illərdə icbari təhsilə cəlb olunmuş qızların ümumi orta təhsil pilləsini bitirməsində və onların dərsə davamiyyətində əsaslı problemlər olmamışdır.

**2019-2020-ci tədris ilində orta təhsil sistemində təhsil alan şagirdlərin sayı**

| Şagirdlərin siniflər üzrə bölgüsü/ sayı | Qızlar | Oğlanlar |
|---|---|---|
| I-IV sinif cəmi: 161926 nəfər | 75350 nəfər | 86576 nəfər |
| IX sinif cəmi:117267 nəfər | 53979 nəfər | 63288 nəfər |
| XI sinif cəmi: 79940 nəfər | 36580 nəfər | 43360 nəfər |

*Cədvəldən görünür ki, orta ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsilalanlar arasında azalma gedir.*

**Yerli icra hakimiyyətləri, yerli təhsili idarəetmə və hüquq-mühafizə orqanları tərəfindən qızların icbari təhsillə əhatəsinin tam təmin edilməsi məqsədilə davamlı olaraq zəruri tədbirlər həyata keçirilir.**

Ümumi təhsil pilləsində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa təhsilalanların yaş xüsusiyyətləri nəzərə alınmaqla gender əsaslı cinsi seçimin qarşısının alınması

və aradan qaldırılması, gender stereotiplərinin dəyişilməsi ilə bağlı mesajların verilməsi, cinsi ayrı-seçkiliyin aradan qaldırılması, qadınların da rəhbər vəzifədə təsvirinin əks olunmasına dair mövzuların daxil edilməsi diqqətdə saxlanılır.

**Dərsliklər nəşr edilməzdən öncə müxtəlif meyarlarla, o cümlədən əsas meyarlardan biri olan "Gender, irq, etnik və din məsələlərinə həssas yanaşmanın təmin olunması" meyarı üzrə qiymətləndirilirlər. Son 5 ildə qeyd edilən meyar üzrə dərsliklərə verilən rəy və təkliflərin nəzərə alınmasına nəzarət gücləndirilmiş və bu istiqamətdə fəaliyyətə xüsusi mütəxəssislər cəlb edilmişdir.**

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 611s nömrəli 2016-cı il 24 noyabr tarixli Qərarına əsasən Azərbaycan Respublikasının Təhsil İnstitutunun təşkilatçılığı ilə "Ehtiyat dərslik" layihəsi çərçivəsində ibtidai siniflər üçün "Azərbaycan dili (tədris dili)", "Azərbaycan dili (dövlət dili)" və "Riyaziyyat" fənləri üzrə dərslik komplektlərinin hazırlanması həyata keçirilir. 2020/2021-ci tədris ilindən kütləvi istifadəyə verilən bu dərsliklərin hazırlanmasında gender bərabərliyi və inklüzivlik ciddi şəkildə nəzərə alınmışdır. Belə ki, "Riyaziyyat" dərsliyində seçilmiş konkret personajların 6-dan 3-ü qız, digər 3-ü isə oğlandır. Eyni zamanda, həmin dərslikdə verilmiş tapşırıqların məzmununda qadının cəmiyyətdəki roluna və fəaliyyətinə diqqət yetirilmişdir. Həmçinin "Azərbaycan dili (tədris dili)" dərsliyində milli qadın qəhrəmanlarımız haqqında xüsusi mətnlər və hekayələr yer almışdır.

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən dövlət uşaq müəssisələrinin tərbiyəçilərinə, eləcə də ümumi təhsil müəssisələrinin müəllimlərinə "Gender bərabərliyi", "İnsan və uşaq hüquqları", "Uşaq inkişafı", "Əlilliyi olan uşaqlarla sosial, psixoloji və pedaqoji iş", "Uşaq müdafiəsinin əsasları", "Uşaq və yeniyetmələrin psixologiyası", "Fərdi inkişaf planının hazırlanması, icrası və monitorinqi" mövzularında təlimlər keçirilmişdir. Bundan əlavə, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Metodiki dəstək və peşəkar inkişaf mərkəzi "Sinifdə gender bərabərliyi" mövzusunda müəllimlər üçün materiallar hazırlamışdır.

Qızların təhsildən yayınma hallarının minimuma endirilməsi məqsədilə ümumi təhsil müəssisələrində ilboyu qabaqlayıcı tədbirlər (ailələrlə iş, sinif rəhbərlərinin fəaliyyətinin gücləndirilməsi, şagirdlərin keyfiyyətli təhsil almasına şəraitin yaradılması, şagirdlərin sinifdənxaric və məktəbdənkənar tədbirlərə cəlb edilməsi, şagirdlərin peşə seçimi işinin yerli şəraitə uyğun aparılması və s.) həyata keçirilmişdir. Hər bir rayonda fəaliyyət göstərən yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar bu işdə yerli təhsili idarəetmə orqanlarına yaxından köməklik göstərirlər. Bununla yanaşı, yerlərdə fəaliyyət göstərən peşə lisey və məktəbləri ilə qarşılıqlı əməkdaşlıq sayəsində ümumi orta təhsili bitirən şagirdlərdən bir qismi təhsili həmin müəssisələrdə davam etdirirlər.

*Ölkə üzrə ümumi təhsil sahəsində keçirilən müxtəlif bilik yarışlarında, müsabiqələrdə, olimpiadalarda qızlar daha fəal iştirak edirlər. 2020-ci ildə "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar ümumtəhsil məktəb şagirdləri arasında keçirilən "Ən yaxşı təqdimat" müsabiqəsində 65 nəfər qalibdən 54 nəfəri qız olmuşdur. Respublika fənn olimpiadasının final turunda 198 nəfər iştirakçı qızdan 91-i, beynəlxalq fənn olimpiyadasının final turunda 10 iştirakçı qızdan 4-ü qalib olmuşdur.*

*Bununla yanaşı, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, 532 nəfər valideyin himayəsindən məhrum olmuş tələbə qızın (503 nəfər bakalavr, 29 nəfər isə magistr pilləsində) təhsil haqqı dövlət vəsaiti hesabına ödənilmişdir.*

*Ali təhsil müəssisələri tələbələrinin gender məsələləri ilə bağlı biliklərinin artırılması məqsədilə universitetlərin bütün fakültələrində “Genderə giriş”, “Genderologiyanın əsasları” və digər fənnlərdə gender məsələlərinə aid mövzular tədris olunur. Bakı Dövlət Universitetində və Qərb Universitetində isə “Gender və tətbiqi psixologiya” kafedrası fəaliyyət göstərir.*

*Azərbaycan Universitetində “Gender problemi və müasir Azərbaycan” (III beynəlxalq), Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində isə “Məişət zorakılığı hallarının qarşısının alınması istiqamətində sosial işin tətbiqi” adlı beynəlxalq konfranslar təşkil olunmuşdur. Hər iki konfransın işinə bir neçə xarici universitetdən bu sahədə tanınmış alimlər cəlb edilmiş və cəmiyyətimizdə mövcud olan aktual problemlər müzakirə olunmuşdur.*

*Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi və “Ümidli gələcək” İctimai Birliyi tərəfindən qadın və qızlar üçün 11 rayonda “Reproduktiv sağlamlığın ümumtəhsil məktəblərində tədrisi” layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində təlim materialları hazırlanmış, təlimçilər üçün əlavə təlimlər keçirilmişdir. Təlim materiallarında erkən nikah, təhsildən yayınma və bunların fəsadları haqqında məlumatlar yer almışdır.*

Gənc hamilə qadınlar və gənc analar ali və orta ixtisas təhsili müəssisələrində təhsilin qiyabi forması üzrə təhsil almaq və müəyyən edilmiş qaydalara əsasən, təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq hüququna malikdirlər.

24 aprel 2018-ci il tarixdə qəbul edilmiş “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda peşə təhsilinin əlçatanlılığının təmin edilməsi və hamı üçün bərabər imkanların yaradılması prinsipi təsbit edilmişdir. Peşə təhsili müəssisələrinə qəbul prosesi zamanı həm oğlanlar, həm də qızlar üçün ixtisas seçiminə məhdudiyyət qoyulmur, onlara bərabər şərait yaradılır, qəbul meyarları isə hər ikisi üçün eynidir. Qadınların məşğulluqda iştirakını təşviq etmək üçün peşə təhsilinə qəbul zamanı qadın və kişilər üçün ixtisasdan asılı olmayaraq eyni qəbul meyarları təmin edilir. Qadınlar istənilən yaşda ixtisasartırma ilə bağlı peşə kurslarına qəbul olub müvafiq ixtisaslar üzrə təhsil ala bilərlər. Onlar üçün 9 aylıq peşə təhsili üzrə tədris proqramları mövcuddur.

*Qadınların təhsilə və əmək bazarına cəlb edilməsi məqsədilə valideyn, müəllim və işəgötürənlər arasında müxtəlif maarifləndirici və peşəyönümü tədbirlər təşkil edilir. Bu kimi tədbirlərdə qızların maraq göstərdiyi ixtisaslar, həmçinin əmək bazarında qadın əməyi tələb edilən ixtisaslar təşviq edilir, eləcə də qeyri-ənənəvi ixtisaslara qadınların cəlb edilməsi üçün peşəyönümü tədbirləri həyata keçirilir.*

***Əvvəlki illərdə olduğu kimi, 2020-2021-ci tədris ilində də peşə təhsili müəssisələrinə qəbul prosesində heç bir məhdudiyyət qoyulmadan hamıya bərabər iştirak hüquqi verilmişdir. Peşə təhsil pilləsinə elektron qəbulun II mərhələsi üzrə müraciət edənlər arasında qadınların payı 30 faizi keçmişdir.***






*Peşə təhsilinə cəlb olunan qadınların sayı artmaqda davam edir. Belə ki, 2018-ci ildə qəbul olunan tələbərin 26.7%-ni, 2019-cu ildə 29.8%-ni, 2020-ci ildə 32.8%-ni qadınlar təşkil etmişdir.*

*Bununla yanaşı cari ildə "Karyera və iş yarmarkası" təşkil edilmişdir. Yarmarkanın təşkili şirkətlərə gənc, peşə təhsilli peşəkarları və potensial işçiləri tapmağa kömək edir, həmçinin gənclərə iş əldə etmək imkanı yaratmaq məqsədi daşıyır. "Karyera və iş yarmarkası"nda sonuncu kurs tələbələri və işsiz gənclər əmək bazarında lazım olan bacarıqlara yiyələnmək və eyni zamanda öz karyera hədəflərini təyin etmək imkanı qazanıblar.*

*Peşə təhsili müəssisələrində təlim-tərbiyə işlərinin aparılması çərçivəsində gənclərin maarifləndirilməsi üçün insan hüquqları, ayrı-seçkiliyə yol verməmə və gender bərabərliyinin dəyərləndirilməsi üzrə müxtəlif tədbirlər təşkil edilmişdir.*

**Ali təhsilin bakalavriat səviyyəsi üzrə 2020/2021-ci tədris ili üçün təhsil alan tələbələrin sayı**

| Kurslar üzrə təhsil alan | | | | | | Bütün kurslarda təhsil alanlar | Onlardan qadınlar | Onlardan kişilər |
|---|---|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | | | |
| 44044 | 44594 | 41759 | 38187 | 7289 | 2236 | 178109 | 87765 | 90344 |

*2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayına nəzər saldıqda görünür ki, bakalavriat səviyyəsində təhsil alan tələbələrin ümumi sayı 178109 nəfər, onlardan 87765 nəfəri qadın, 90344 nəfəri kişi olmuşdur.*

**Ali təhsilin magistratura səviyyəsi üzrə 2020/2021-ci tədris ili üçün təhsil alan tələbələrin sayı**

| Kurslar üzrə təhsil alan | | | Bütün kurslarda təhsil alanlar | Onlardan qadınlar | Onlardan kişilər |
|---|---|---|---|---|---|
| I | II | III | | | |
| 8695 | 6673 | 782 | 16150 | 8469 | 7681 |

*2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrində magistratura səviyyəsində təhsil alan 16150 nəfər tələbənin 8469 nəfərini qadınlar, 7681 nəfərini isə kişilər təşkil etmişdir.*

**2020/2021-ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəssisələrində professor-müəllim heyəti**
*(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)*

| | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Rektorlar | 0,1 | 0,6 | 10,0 | 90,0 |
| Prorektorlar, filial direktorları | 0,6 | 2,2 | 24,0 | 76,0 |
| Laboratoriya və şöbə müdirləri | 4,6 | 7,0 | 45,3 | 54,7 |
| Fakültə dekanları | 0,6 | 2,4 | 25,8 | 74,2 |
| Kafedra müdirləri | 2,9 | 9,1 | 28,5 | 71,5 |
| Kafedra heyətindən professorlar | 2,2 | 10,6 | 20,3 | 79,7 |
| Kafedra heyətindən dosentlər | 23,2 | 30,4 | 48,7 | 51,3 |
| Baş müəllimlər | 30,4 | 21,2 | 64,1 | 35,9 |
| Müəllimlər, assistentlər | 35,4 | 16,5 | 72,8 | 27,2 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 55,5 | 44,5 |
| nəfər | 7647 | 6137 | x | x |

*Cədvəldən məlum olur ki, 2020/2021-ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəsisələrində professor-müəllim heyətində çalışan qadınlar arasında baş müəllimlər, müəllimlər və assistentlər üstünlük təşkil edir.*

**2020/2021-ci tədris ilinin əvvəlinə qeyri-dövlət ali təhsil müəssisələrində professor-müəllim heyəti**
*(Yekuna görə, cins bölgüsü, nəfər, faizlə)*

| | Yekuna görə faizlə | | Cins bölgüsü | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Rektorlar | 0,6 | 0,8 | 40,0 | 60,0 |
| Prorektorlar, filial direktorları | 1,0 | 3,1 | 23,3 | 76,7 |
| Laboratoriya və şöbə müdirləri | 7,2 | 7,3 | 48,6 | 51,4 |
| Fakültə dekanları | 1,7 | 2,6 | 38,7 | 61,3 |
| Kafedra müdirləri | 4,6 | 7,1 | 38,4 | 61,6 |
| Kafedra heyətindən professorlar | 1,7 | 9,0 | 15,2 | 84,8 |
| Kafedra heyətindən dosentlər | 15,5 | 20,4 | 42,1 | 57,9 |
| Baş müəllimlər | 21,4 | 17,0 | 54,7 | 45,3 |
| Müəllimlər, assistentlər | 46,3 | 32,7 | 57,4 | 42,6 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 48,9 | 51,1 |
| nəfər | 709 | 742 | x | x |

*Cədvəldən məlum olur ki, 2020/2021-ci tədris ilinin əvvəlinə qeyri-dövlət ali təhsil müəsisələrində də professor-müəllim heyətində çalışan qadınlar arasında baş müəllimlər, müəllimlər və assistentlər üstünlük təşkil edir.*

## Elmdə gender bərabərliyinin təmin olunması

Azərbaycan Milli Elmlər Akademiyasında 2020-ci il üzrə işçilərin ümumi sayı 9984 nəfər olmuş, onlardan 6240 nəfərini qadınlar, rəhbər vəzifədə işləyənlərin 952 nəfərini kişilər, 362 nəfərini isə qadınlar təşkil etmişdir.

AMEA-da məsul vəzifələrə təyinatlar seçkilər nəticəsində həyata keçirilir.

Akademiyanın 64 həqiqi üzvündən 7 nəfəri qadın, 57 nəfəri kişi, 95 müxbir üzvündən 10 nəfəri qadın, 85 nəfəri kişidir. Gənc alim və mütəxəssislər arasında isə qadınlar çoxluq təşkil edirlər.

***Azərbaycan Milli Elmlər Akademiyasında 2020-ci il üzrə müxtəlif elm sahələrində çalışan qadın və kişilərin say nisbəti elmi bölmələr üzrə aşağıdakı kimidir:***

| Elmi bölmələr və qurumlar | Kişilər | Qadınlar |
|---|---|---|
| *AMEA Rəyasət Heyəti Aparatı* | 169 | 154 |
| *Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi* | 781 | 1023 |
| *Kimya Elmləri Bölməsi* | 412 | 1079 |
| *Biologiya və Tibb Elmlər Bölməsi* | 530 | 1022 |
| *Yer Elmləri Bölməsi* | 640 | 574 |
| *İctimai Elmlər Bölməsi* | 520 | 865 |
| *Humanitar Elmlər Bölməsi* | 255 | 908 |
| Naxçıvan, Gəncə Bölmələri, Şəki və Lənkəran Regional Elmi Mərkəzləri | 265 | 335 |
| *AMEA-nın müəssisələri* | 85 | 251 |
| *AMEA-nın təsərrüfat hesablı müəssisələri* | 87 | 29 |

*Mövcud statistik məlumatlar göstərir ki, elmi fəaliyyətlə məşğul olanlar içərisində qadınlar əhəmiyyətli paya malikdirlər. Buna baxmayaraq, rəhbər vəzifələrdə çalışan qadınların, həmçinin Elmlər Akademiyasının həqiqi və müxbir qadın üzvlərinin sayı kişilərlə müqayisədə xeyli azdır.*

## İnformasiya kommunikasiya texnologiyaları sahəsində gender bərabərliyinin təmin edilməsi

Qadınların İKT sektorunda daha fəal iştirakı və təmsilçiliyinin təşviqi Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM-lər) həyata keçirilməsində mühüm rol oynayır. Dayanıqlı İnkişaf Məqsədlərindən 5-ci məqsədin həyata keçirilməsi gənc qızların və qadınların bu sahədə peşə biliklərini və karyera imkanlarını artırmağa, qadınların informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə səlahiyyətlərini genişləndirməyə imkan yaradır. 4-cü Qlobal Məqsəd hər kəs üçün inklüziv və keyfiyyətli təhsilin təmin edilməsini və ömür boyu təhsilin təşviq edilməsini hədəfləyir. Həmçinin 9-cu Qlobal Məqsədin həyata keçirilməsi İKT-də gender bərabərliyinin qorunmasına, ölkədə möhkəm və dayanıqlı infrastrukturun yaradılmasına, inklüziv və dayanıqlı sənayeləşmənin təşviqinə və innovasiyaların inkişafına xidmət edir.

| Rabitə və Yüksək Texnologiyalar Nazirliyində çalışan işçilərin sayı | İşçilərin ümumi sayı | Kişilər | Qadınlar |
|---|---|---|---|
| Nazirliyinin strukturu üzrə ümumi işçi sayı | 18245 nəfər | *12023 nəfər* | *6222 nəfər* |
| Nazirliyin və tabeliyindəki qurumların mərkəzi idarələri (aparat və baş idarələr) üzrə işçi sayı | 4436 nəfər | *3208 nəfər* | *1228 nəfər* |
| Nazirliyin tabeliyindəki qurumların yerli bölmələri üzrə işçi sayı | 13809 nəfər | *9061 nəfər* | *4748 nəfər* |
| Nazirlik üzrə rəhbər vəzifələrdə çalışan işçi sayı | 2784 nəfər | *2075 nəfər* | *709 nəfər* |

***Cədvəldən görünür ki, 2020-ci ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin strukturu üzrə ümumi işçi sayında və rəhbər vəzifələrdə kişilər üstünlük təşkil edir.***

Bütün dünyada olduğu kimi, ölkəmizdə də qadınların İKT sektorunda rolu günü-gündən artmaqdadır. Qadınların İKT sahəsində biliklərinin artırılması, İKT texnologiyalarından geniş istifadəsi onların təhsil, məşğulluq və sair xidmətlərə daha asan əlçatanlığını təmin edir. 2020-ci ildə COVİD-19 pandemiyası ilə əlaqədar olaraq, əksər sahələr onlayn xidmət göstərmişdir. Əsasən tədrisin onlayn olması ailələrdə İKT-dən geniş istifadə ilə nəticələnmişdir.

*2019-cu ildən 2020-ci ilin iyun ayınadək Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzinin və YUNESKO-nun birgə təşkilatçılığı ilə Bakı və Xırdalan şəhərinin məktəblərində və Ağdam, Şamaxı, Mingəçevir, Zaqatala, Qəbələ, Ağdaş, Şabran şəhərlərində "Rəqəmli qızlar ("DigitalGirls") – Milli təlim proqramı" adlı layihə çərçivəsində təlimlər təşkil edilmişdir. Təlimlərin əsas məqsədi qadınların rəqəmsal bacarıqlarının inkişafı və ölkəmizdə qadınların şəxsi inkişafının dəstəklənməsi olmuşdur. Layihə çərçivəsində təşkil edilən təlimlərdə 560 şagird və gənc qızlara əsas rəqəmsal biliklər üzrə kompüter texnologiyaları ilə yanaşı, şəxsi inkişaf bacarıqları və həyatda bu bacarıqları tətbiq etməklə uğur qazanmağın yolları öyrədilmiş,həmçinin, qızlar İKT sahəsində uğurlu karyera qurmaq imkanları ilə tanış olmuşlar.*

*17 dekabr 2020-ci il tarixində "InnoWeek - İnnovasiyalar Həftəsi 2020" çərçivəsində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və «Fem Tech» platformasının birgə təşkilatçılığı, "Wonder Women Azerbaijan", "Girls Code Azerbaijan", "Femmes Digitales" və "Wowoman Azerbaijan"ın tərəfdaşlığı ilə "FemTech - Qadınlar Texnologiyada" adlı onlayn tədbir keçirilmişdir. Tədbirin məqsədi qadınların texnologiya sahəsi üzrə maarifləndirilməsi, bu sahədə təhsilin vacibliyi və geniş iş imkanları barədə məlumatların verilməsi, texnologiya sahəsində fəaliyyət göstərən lider qadınlar arasında şəbəkənin yaradılması olmuşdur.*

*Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) maliyyə dəstəyi ilə NRYTN-in İKT-nin Tətbiqi və Tədrisi Mərkəzi tərəfindən "Qadınlar üçün İT sahədə multimedia onlayn kurs və veb portalın inkişafı" adlı layihəyə start verilmişdir. Layihənin əsas məqsədi ölkəmizin hər bir nöqtəsində qadınların İKT sahəsində, xüsusilə proqramlaşdırma üzrə karyera qurmasına dəstək verməkdir. Onlayn kurslarda əldə edilən biliklər qadınların proqramlaşdırma üzrə fəaliyyət göstərməsinə imkan verəcəkdir. 2020-ci ilin sonunda layihə çərçivəsində https://iktlab.edu.az/* portalı *hazırlanmışdır. Hal-hazırda portalda rəqəmli bacarıqların əsasları, internet texnologiyalarından istifadə və digər bu kimi kurslar yerləşdirilmişdir.* Eyni zamanda Nazirliyin tabeliyində olan İnnovasiyalar Agentliyinin təşkil etdiyi startap layihələri üzrə 248 nəfər müraciət etmişdir ki, bu startapçılardan 220 nəfəri kişi, 28 nəfəri qadın olmuşdur.

- Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən qadınların qeyri-ənənəvi peşə sahələrinə yiyələnməsi ilə bağlı mövcud stereotiplərin araşdırılması məqsədilə "Mühəndislikdə gender balansı və karyera bələdçiliyi" adlı layihə həyata keçirilmişdir. Layihə çərçivəsində məktəb şagirdləri, onların valideynləri və qeyri-mühəndislik sahəsində təhsil alan tələbələr arasında tədqiqat aparılmışdır. Tədqiqatda 44 ümumtəhsil müəssisəsi üzrə 3500 şagird və 3000 valideyn və 8 ali təhsil müəssisəsi üzrə 200 tələbə iştirak etmişdir.

- YUNESKO-nun maliyyə dəstəyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Xəyal et" qızlar üçün İKT yay düşərgəsi təşkil edilmişdir. Düşərgə çərçivəsində informasiya kommunikasiya texnologiyaları və aidiyyəti üzrə ixtisaslaşmış müxtəlif qurumlara təhsil turları-ekskursiyalar təşkil olunub.

- "Azərbaycan qadınları İnformasiya Kommunikasiya Texnologiyalarında- Femmes Digitales (AWIC)" klubunun təşkilatçılığı ilə sayca 2-ci "AWITA 2018" ("The Women in IT Award") mərasimində Azərbaycan Respublikasının Təhsil Nazirliyi qadınlar arasında informasiya kommunikasiya texnologiyaları sahəsinin təbliğinə göstərdiyi dəstəyə görə diplom və mükafatla təltif olunmuşdur.

- Azərbaycan Texniki Universitetinin BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) "Üzv dövlətlərin fəaliyyəti ilə bağlı 2020-2021-ci illər üçün İştirak Proqramı"na təqdim etdiyi "Davamlı İnkişaf üçün mühəndislik təhsili alan qızların iştirakının artırılması" layihəsi qalib olub. Layihənin məqsədi qadınların mühəndislik peşəsinə həvəslən-dirilməsidir.



## 3.3. Siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təmin edilməsi (Maddə 16)

*“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 16.1-ci maddəsində göstərilir ki, siyasi partiyalara, qeyri-hökumət təşkilatlarına və həmkarlar ittifaqlarına daxil olmaq kişi və qadınlar üçün eyni şərtlərlə açıq olmalı və onlar üçün bərabər imkanlar yaradılmalıdır.*

**Siyasi partiyalar**

**2020-ci ilə ölkəmizdə 63 siyasi partiya dövlət qeydiyyatına alınmışdır. Onlardan yalnız 1-nə qadınlar, 62-nə isə kişilər rəhbərlik etmişdir.**

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər – 9 fevral 2020-ci il**

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə adı seçki bülleteninə daxil olan 1 314 namizəd qeydə alınıb. Onlardan 1 038-i (79%) kişi, 276-sı (21%) isə qadın olub.Namizədlərdən 99 (81,82%) kişi və 22 (18,18%) qadın ali qanunverici orqana seçilib. Seçicilərin ümumi sayı 5 238 000 nəfər olub. Onlardan 2 579 922 (49,25%) nəfərini kişilər, 2 658 078 (50,75%) nəfərini isə qadınlar təşkil edib.

Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə siyasi partiyalar tərəfindən irəli sürülən qadın namizədlərin ümumi sayı 276 nəfər, seçilənlərin sayı isə 22 nəfər olub. Daha çox Yeni Azərbaycan Partiyasının (YAP), Azərbaycan Ümid Partiyasının (ÜMİD) və Müsavat Partiyasının qadın namizədləri qeydə alınmışdır.

Mərkəzi Seçki Komissiyası 9 fevral 2020-ci ildə keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçici maarifləndirmə proqramı çərçivəsində qadınların seçkilərdə aktivliyinin daha da yüksəldilməsinə yönələn müxtəlif layihələr həyata keçirmişdir. Belə ki, hər iki seçkidə qadınların fəallığını artırmaq məqsədilə Mərkəzi Seçki Komissiyası ayrıca video və audio çarxlar hazırlamış, həmin çarxlar televiziya və radio kanallarında mütəmadi nümayiş etdirilməklə yanaşı, sosial şəbəkələrdə də yerləşdirilmişdir.

**Ölkəmizdə fəaliyyət göstərən seçki komissiyalarında qadınların iştirakçılığı nəzərə çarpandır.**

Mərkəzi Seçki Komissiyasının hal-hazırda fəaliyyətdə olan 18 üzvündən 14-ü kişi, 4-ü qadındır, onlardan 3 kişi (sədr, sədr müavini və katib) və 1 qadın (katib) rəhbər vəzifədə təmsil olunur. Komissiyanın Katibliyində isə 66-sı kişi, 57-si qadın olmaqla, cəmi 123 nəfər işçi çalışır, onlardan 16 nəfər kişi və 3 nəfər qadın müxtəlif rəhbər vəzifələrdədir.

125 dairə seçki komissiyasının 1 115 üzvündən 920-si (82,51%) kişi, 195-i (17,49%) qadındır. 118 DSK sədri (97,52%) kişi, 3 DSK sədri (2,48%) qadındır. Dairə seçki komissiyalarının 247 katibindən 200-ü (80,97 %) kişi, 47-i (19,03) isə qadındır.

5 442 məntəqə seçki komissiyasının 32 133 üzvündən 20 314-ü (63,22%) kişi, 11 819-u (36,78%) qadındır. 4 023 (75,11%) kişi, 1 333 (24,89) qadın məntəqə seçki komissiyasının sədridir. Məntəqə seçki komissiyasında fəaliyyət göstərən katiblərin 6 666-sı (62,24%) kişi, 4 045-i (37,76%) qadındır.

**Qeyri-Hökumət Təşkilatları**

2020-ci il ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi ilə birgə keçirdiyi qrant müsabiqəsi çərçivəsində “Ailə dəyərlərinin təbliği və gənc ailələrə psixoloji yardımın göstərilməsi”, “Həssas qrupdan olan qadınların və uşaqların hüquqi, psixoloji və sosial cəhətdən dəstəklənməsi”, “Qadınlar üçün innovativ ideyalar üzrə startap layihələrinin hazırlanması”, “Gender bərabərliyi və gender əsaslı zorakılığa qarşı mübarizəyə dair təşəbbüslər”, “Məişət zorakılığı və ondan müdafiə mexanizmləri haqqında vətəndaşların maarifləndirilməsi”, “Qadınların reproduktiv sağlamlığı və ailə planlaşdırılması ilə bağlı maarifləndirmə işlərinin təşkili”, “Baxımsız və küçə həyatı yaşayan uşaqların sosial reabilitasiyasına dair təşəbbüslər” istiqamətləri üzrə QHT layihələrinə qrant vəsaiti ayrılmışdır.

Qrant müsabiqəsi müddətində 38 QHT layihəsi maliyyələşdirilib və onlara 218.900 manat vəsait ayrılıb. Layihələrdən keçirilən tədbirlər çərçivəsində 154721 nəfəri qadın, 183728 nəfəri kişi, 37762 nəfəri uşaq olmaqla, ümumilikdə 376211 nəfər birbaşa bəhrələnmişdir. Layihələrin icrası müddətində 13 TV veriliş, 1 kitab, 16 kitabça-buklet, 2 sosial çarx hazırlanmış və ümumilikdə 200-dən çox təlim, seminar, dəyirmi masa və s. tədbirlər keçirilmişdir.

**Həmkarlar İttifaqları**

Azərbaycan Həmkarlar İttifaqları ölkədə gender bərabərliyi və qadın hüquqlarını müdafiəsi prosesinə fəal qoşularaq, qadın problemləri üzrə milli proqramların həyata keçirilməsində, sosial əmək münasibətlərində ayrı-seçkiliyin qarşısının alınmasında və iş yerlərində işçilərin mənafelərinin qorunması prosesində yaxından iştirak edirlər.

AHİK –nın xidmətində olan müəssisə və təşkilatlarda çalışan işçilərin 52%-ni qadınlar təşkil edir. AHİK-nın bütün sahələrində rəhbər vəzifələrdə çalışan işçilərin 39,8%-i qadınlardır, onlardan da 45,7%-i gənc qadınlardır. Rəhbər vəzifədə işləyən gənc qadınların sayında 3,5% artım müşahidə olunur, bu da ümumi sayın 36,5%-ni təşkil edir.

AHİK-in seçkili orqanlarında qadınların sayı 3,2% artaraq ümumilikdə 45,2% təşkil etmişdir.

Aparılmış ardıcıl və məqsədyönlü işlərin nəticəsində “Gender bərabərliyi və qadın problemləri üzrə” komissiyaların sayı artmışdır. Beləki 2006-cı ildə 90 komissiya və onun tərkibində 105 komissiya üzvü fəaliyyət göstərirdisə, 2020-ci ildə bu komissiyaların sayı 2070-ə , üzvlərin sayı isə 11170 nəfərə çatmışdır.

AHİK-in İcraiyyə Komitəsinin qərarı ilə Həmkarlar İttifaqı strukturlarında gender və qadın problemləri ilə məşğul olan qurumları birləşdirən “Həmkarlar İttifaqlarının gender bərabərliyi və qadın problemləri üzrə Komissiyası haqqında Əsasnamə” təsdiq edilmişdir.

İcraiyyə Komitəsinin Qərarı ilə “AHİK-in gender siyasəti Konsepsiyası” təsdiqlənmiş və bu Konsepsiyaya uyğun olaraq AHİK-in nəzdində yaradılmış “Gender bərabərliyi və qadın problemləri” üzrə Mərkəzinin təşəbbüsü ilə bütün sahə şəhər, rayon, müəssisə, idarə həmkarlar ittifaqi təşkilatları nəzdində komissiyalar fəaliyyət göstərməkdədir.

Mərkəz üzv təşkilatlarda qadınların məşğulluğunun artırılmasını nəzərdə tutan bölmələrin kollektiv sazişlərə və müqavilələrə daxil edilməsinə, onların əmək mühafizəsi qaydalarına riayət edilməsinə, ailələrin sosial müdafiəsinə xüsusi önəm vermişdir.

Mərkəz tərəfindən müxtəlif təşkilatlarda çalışan qadınların sosial problemlərinin həlli, hüquqlarının müdafiəsi, sağlamlığının mühafizəsi, əmək şəraitinin yaxşılaşdırılması, fəallığının artırılması istiqamətində həyata keçirilən tədbirlər ilə yanaşı, gender məsələsinin araşdırılması məqsədilə də qadınlar arasında sosioloji sorğular keçirilmişdir.

AHİK hər il “Qadınlara Qarşı Zorakılıq üzrə 16 günlük Kampaniya” çərçivəsində “Zorakılıq problemlərinə dair baxışlar ” mövzusunda Konfrans keçirir.

Eyni zamanda AHİK-in üzv təşkilatlarının komissiyaları ilə birgə “8 Mart Beynəlxalq Qadınlar Günü”, “Adını tarixə yazan qadınlar (Zərifə Əliyeva)”, “15 Aprel – Beynəlxalq Mədəniyyət Günü”, “15 May – Beynəlxalq Ailə Günü”, “Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə”, “İnsan Hüquqları Günü” və digər tədbirlərdə qadınların ailədəki rolu, gender bərabərliyi iş yerlərində ayrı-seçkiliyə qarşı mübarizə və digər məsələlər üzrə müzakirələr keçirilmişdir.



# 4. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlər

2020-ci il gender bərabərliyinin təmin edilməsi sahəsində əsasən çox mühüm hüquqi sənədlərin təsdiq edilməsi, gender əsaslı zorakılıqla mübarizənin gücləndirilməsi, ölkə ərazisində qadın resurs mərkəzlərinin sayının artırılması, bələdiyyələrdə gender komissiyalarının formalaşdırılması, yeni təhlillərin, təlimatların və nəşrlərin hazırlanması ilə əlamətdar olmuşdur.

“Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”, “Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı” və “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası” gender əsaslı zorakılıqla mübarizənin daha geniş miqyasda və əsaslı olaraq aparılması üçün yeni bir mərhələyə keçidə imkanı verdi.

Həmçinin “Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020-2025-ci illər üçün Tədbirlər Planı”nın təsdiqi əmək bazarında qadınların rəqabət qabiliyyətinin artırılmasına və iqtisadi asılılığının zəiflədilməsinə öz töhvələrini verəcəkdir. Covid-19 pandemiyasının doğurduğu fəsadlar ictimai həyatın demək olar ki, bütün sahələrində hər iki cinsin ciddi risklərlə qarşılaşmasına, xüsusilə iqtisadi imkanlarının məhdudlaşmasına səbəb olmuşdur. Bu da öz növbəsində dövlət tərəfindən məşğulluğun stimullaşdırılması və dəstəklənməsi, həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi üçün daha ciddi və kompleks addımların həyata keçirilməsini şərtləndirdi.

Müsbət məqamlardan biri odur ki, 2019-cu il üzrə Məlumatda həyata keçirilməsi zəruri olan bir sıra tədbirlərin reallaşdırılması istiqamətində məqsədyönlü işlər görülmüş və onların növbəti ildə də davam etdirilməsi diqqət mərkəzindədir. Qanunvericiliyin təkmilləşdirilməsinə dair bir sıra tədbirlərlə bağlı isə artıq Dövlət Komitəsi tərəfindən müvafiq addımlar atılmışdır.

Lakin il ərzində həllini tapmamış bir çox məsələlər də vardır ki, onlara növbəti ildə diqqət yetirilməsi məqsədəuyğundur.

**Dövlət Komitəsi gender bərabərliyinin təmin edilməsi sahəsində mövcud boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edir:**

1. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına dair Konvensiyasından (CEDAW) irəli gələn öhdəliklərin həyata keçirilməsi sahəsində fəaliyyətlərin gücləndirilməsi;

2. Gender bərabərliyinin təmin edilməsinə dair milli fəaliyyət planının qəbul edilməsi;

3. “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi;

4. Gender əsaslı büdcə siyasəti və praktikasının formalaşdırılması;

5. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının “Qadınlar, Sülh və Təhlükəsizlik” üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında həyata keçirilməsinə dair milli fəaliyyət planının qəbul edilməsi;

6. İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorda gender bərabərliyi mədəniyyətinin təbliği üzrə fəaliyyətlərin gücləndirilməsi;

7. “Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında” Azərbaycan Respublikası Qanunun qəbul edilməsi (BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyinin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin ölkəmizlə bağlı tövsiyələrində də bu öz əksini tapıb);

8. Gender əsaslı zorakılığın, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi; xüsusilə də məişət zorakılığına görə cərimə ilə bağlı sanksiyalara, tərəflərin barışması əsasında inzibati işlərə hər dəfə xitam verilməsi məsələsinə yenidən baxılması, cinayət qanunvericiliyinə məişət zorakılığı ilə bağlı normaların daxil edilməsi, məişət zorakılığı hallarının araşdırılması üzrə mexanizmin təkmilləşdirilməsi;

9. Məişət zorakılığından əziyyət çəkən şəxslərə təxirəsalınmaz və hərtərəfli yardımların göstərilməsi, bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun (yeni yardım mərkəzləri, sığınacaqlar, qaynar xətlər) yaradılması;

10. Gender əsaslı zorakılığın qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin gücləndirilməsi, xüsusilə də maarifləndirmə və məlumatlandırma işlərinin rayon və kənd yerlərində daha geniş şəkildə aparılması;

11. Qız uşaqlarının məhz erkən yaşda evliliyə məcbur edilməsi faktının müəyyən edilməsi bəzən hüquq-mühafizə orqanlarına çətinlik yaratdığı üçün bu halların araşdırılması üzrə prosedurların təkmilləşdirilməsi;

12. Qız uşaqlarının təhsildən yayınması ilə bağlı monitorinqlərin gücləndirilməsi;

13. Doğulan uşaqlar arasında cins balansının pozulması hallarının qarşısının alınması ilə bağlı tədbirlərin gücləndirilməsi;

14. Qadınların, xüsusilə kənd yerlərində yaşayan qadınların iqtisadi fəallıq səviyyəsinin yüksəldilməsinə, xüsusilə onların peşə-ixtisas hazırlığının artırılmasına, kişilərlə bərabər iqtisadi hüquqlarının həyata keçirilməsinə hərtərəfli dəstəyin göstərilməsi;

15. Qadın sahibkarlığının stimullaşdırılması üzrə yeni mexanizmlərin işlənilməsi;

16. Ailə öhdəliyi olan işçilərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə məktəbəqədər təhsil infrastrukturunun inkişafı üzrə tədbirlərin davam etdirilməsi;

17. Əmək bazarında qadınların vəziyyəti ilə bağlı hərtərəfli statistik informasiyaların və etibarlı məlumat bazasının formalaşdırılması;

18. Qadınların rəqabətliliyinin artırılması məqsədilə əmək bazarında prioritet istiqamətlər üzrə hazırlığının təşkili;

19. Kişilərin və oğlanların əmək bazarında azlıq təşkil etdikləri sahələrə onların cəlb edilməsi, bu sahələrdə kişilərə və oğlanlara təsir göstərən gender stereotiplərinin aradan qaldırılması;

20. Həyat yoldaşlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olması, seksual qısnamaya, ayrı-seçkilyi əks etdirən iş elanlarına görə sanksiyaların müəyyən edilməsi üçün qanunvericiliyə dəyişikliklərin edilməsi;

21. Müvafiq olaraq təhsilin bütün pillələrində fənn proqramlarına qadın hüquqları, gender bərabərliyi üzrə mövzuların daxil edilməsi;

22. Təhsilin bütün pillələrinə aid tədris resursları üzrə gender ekspertizasının keçirilməsi;

23. İctimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması;

24. Siyasi partiyalarda gender bərabərliyinin qorunması, idarəetmə və qərarqəbuletmədə bərabər təmsilçilik və iştirakçılıq imkanlarının genişləndirilməsi

***Qeyd:*** *2, 3, 8, 9, 20-ci bəndlərdə nəzərdə tutulmuş məsələlərlə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə aidiyyəti qurumlarla razılaşdırılmış normativ hüquqi akt layihələri təqdim edilmişdir.*

*5-ci bənddə nəzərdə tutulmuş sənəd layihəsinə 44 günlük Vətən Müharibəsi ilə əlaqədar olaraq yenidən baxılması zərurəti yaranmışdır.*







